www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 may 2018-ci il Bazar ertəsi № 104 (6993) Qiyməti 60 qəpik

**Xəbər**

## Sabirabadda nişanlısının yaşını öyrənən qız evdən qaçdı

yazısı səh.14-də

# PAŞİNYAN BU GÜN "MƏHŞƏR AYAĞI"NA ÇƏKİLİR - KREMLİN QARABAĞ ŞƏRTİ

Soçidə Ermənistanın yeni baş naziri "xalça üzərinə" çağırılacaq; Putin Saakaşvili olmaq istəyən Nikol Paşinyanı sərkisyanlaşdıra biləcəkmi? - rəy və gözləntilər...



yazısı səh.8-də

**Gündəm**

### Gələn həftə böyük əfv olacaq - siyahı yekunlaşır



**Komissiya üzvü:** "Bizə elə şəxslər müraciət edib ki..."

yazısı səh.5-də

### "Sovetski"də qalan əhali kompensasiyanın artırılmasını istəyir

yazısı səh.3-də

### Kreml Qarabağda Afrin əməliyyatı kimi bir əməliyyata "yaşıl işıq" yandıra bilər

yazısı səh.9-da

### ABŞ İran üzərindən Türkiyəni hədəf alıb? - ilginc iddia

yazısı səh.12-də

### II və III qruplar üzrə qəbul imtahanı keçirildi

yazısı səh.2-də

### "Neft kəskin bahalaşacaq" iddiasına reaksiyalar

yazısı səh.4-də

### "Eurovision"un qalibi israilli oldu - Netanyahu qalmaqallı bəyanat verdi

yazısı səh.14-də

### Bu gün ABŞ səfirliyi Qüdsə köçürülür: müsəlman Şərqi üçün kritik gün

yazısı səh.12-də

### "Qarabağ və 7 rayon Azərbaycana qaytarılmalıdır" - rusiyalı deputat

yazısı səh.11-də

### Yaşlı və uşaqların yaddaşını "sıfırlayan" xəstəlik: ondan necə qorunmalı?

yazısı səh.15-də

## "Koroğlu" MMC-də Eldar Mahmudov çetesinin izləri - sensasion faktlar

Şirkətdə borc bataqlığına salınan işçini soyunduraraq videosunu çəkiblər; işgəncələrə dözməyən işçilər intihar ediblər...

yazısı səh.6-da



*Tofiq Zülfüqarov:*

**"Paşinyanın vertolyotuna tərəf atəş açılsaydı..."**

yazısı səh.7-də



*Əli Məsimli:*

**"Acgözlüyün sinoniminə çevrilmiş təbəqə neytrallaşdırılmalıdır"**

yazısı səh.10-da



*Mübariz Əhmədoğlu:*

**"İlin sonunda İrana qarşı hərbi əməliyyatlar başlayacaq"**

yazısı səh.4-də

14 may 2018



## Türkiyədə prezidentlik uğrunda 6 namizəd yarışacaq

**Türkiyədə gələn ay - 24 iyun 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində iştirak edən namizədlərin yekun siyahısı təsdiqlənib. Modern.az saytı Türkiyə mediasına istinadən xəbər verir ki, siyahını seçkilərə nəzarət edən Yüksək Seçim Kurulu (YSK) açıqlayıb.**

Beləliklə, prezidentlik uğrunda yarış 6 namizəd arasında gedəcək. Bunlar əlifba sırası ilə aşağıdakılardır:

Doğu Perinçek - Vətən Partiyasının namizədi, partiya başqanı;

Meral Akşener - İYİ Partiyanın namizədi, partiyanın başqanı;

Muharrem İnce - Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi, Yalovadan millət vəkili;

Rəcəb Tayyip Ərdoğan - Hakim Ədalət və İnkişaf Partiyası (AKP) ilə Milliyətçi Hərəkat Partiyasının (MHP) vahid namizədi, hazırki prezident;

Selahattin Demirtaş - Xalqların Demokratik Partiyasının (HDP) namizədi, İstanbuldan millət vəkili

Temel Karamollaoğlu - Səadət Partiyasının namizədi, partiya başqanı;

Türkiyədə prezident və parlament seçkiləri 24 iyunda keçiriləcək. Seçkilər iqtidar və müxalifət üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, seçkilərdən sonra Türkiyə parlament sistemindən prezident sisteminə keçəcək.



## Bu gün Bakıda 23° isti olacaq

**Azərbaycanda mayın 14-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin axşam bəzi yerlərdə havanın çiskinli olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Temperatur gecə 14-16° isti, gündüz 19-23° isti təşkil edəcək.

## Azyaşlı paltaryuyan maşında boğularaq öldü

**Yakutiyanın Suntar kəndində azyaşlı qız paltaryuyan maşının içində boğularaq ölüb. Musavat.com Trend-ə istinadən xəbər verir ki, "Feya" markalı paltaryuyan maşının içinə yıxılaraq öldüyü bildirilib. Qeyd olunur ki, həmin zaman uşağın anası otağı tərk edib, körpə tək olub. Bir müddət sonra qayıdan ana artıq qızını paltaryuyan maşınının çənində ölmüş vəziyyətdə tapıb.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# II və III qruplar üzrə qəbul imtahanı keçirildi

**Dövlət İmtahan Mərkəzi (DİM) dünən 2018/2019-cu tədris ili üçün ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.**



DİM-dən Musavat.com-a verilən məlumata görə, imtahan 11 şəhərdə - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 66 binada aparılıb. İmtahanda 36 559 abituriyentin iştirakı nəzərdə tutulurdu. Onlardan 17 253 abituriyent II qrup üzrə, 19 306 abituriyent isə III qrup üzrə imtahan verib.

Abituriyentlərdən 33 462 nəfəri Azərbaycan bölməsinin (II qrup üzrə 15599, III qrup üzrə 17863 nəfər), 3097 nəfəri isə rus bölməsinin (II qrup üzrə 1654, III qrup üzrə 1443 nəfər) məzunudur. Onlardan 16194 nəfəri oğlan (II qrup üzrə 10974 nəfər, III qrup üzrə 5220 nəfər), 20365 nəfəri isə qızdır (II qrup üzrə 6279 nəfər, III qrup üzrə 14086 nəfər). 28318 nəfər cari ilin orta ümumtəhsil müəssisələrinin, 8241 nəfər əvvəlki illərin məzunlarıdır (buraya ali və ya orta ixtisas təhsili olanlar da daxildir).

93 nəfər ali təhsil müəssisələrinin, 1452 nəfər isə orta ixtisas təhsili müəssisələrinin məzunudur. 196 abituriyent xarici ölkələrin vətəndaşıdır. Ən yaşlı abituriyent 1960-cı ildən, ən gənci isə 2003-cü ildəndir.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanıb və 3 saat davam edib. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Dəfələrlə xəbərdarlıq edildiyinə baxmayaraq, bəzi abituriyentlər tələb olunan sənədləri özləri ilə gətirmədikləri üçün imtahana buraxılmayıblar. Bundan əlavə imtahana köməkçi vasitələr, o cümlədən mobil telefon gətirən, imtahanın gedişi zamanı köçürməyə cəhd edən, imtahan qaydalarına zidd hərəkətlərə yol verən abituriyentlər imtahandan xaric olunub və nəticələri ləğv edilib.

Abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri imtahandan 3-4 gün sonra DİM-in internet saytında yerləşdiriləcək.

# Tramp 2020-ci il seçkilərinə hazırlığa başlayıb

**Donald Tramp hazırlıqlara indidən başlayıb. D.Tramp üçün Konqresin aşağı, yəni Nümayəndələr palatasına və Senatın bir hissəsinə keçiriləcək seçkilər olduqca önəmlidir. Musavat.com xarici mediaya istinadən xəbər verir ki, ABŞ prezidenti buna görə partiyasının təbliğat mitinqlərində şəxsən özü iştirak edir.**



Ağ Evin rəhbəri bu məqsədlə rəqib Demokratlar Partiyasının istinadgahlarından sayılan İndiana ştatında tərəfdarlarını toplayıb və onları bu ilin payızında keçiriləcək seçkilərdə demokratlara qarşı səfərbər olmağa çağırıb. "Siz elə indidən Amerikanın böyüklüyünü və qüdrətini yenidən qazanmaq naminə daha çox respublikaçının parlamentə düşməsi üçün çalışmalısınız. Əgər demokratlar qalib gəlsə, bütün iş yerləriniz məhv olacaq" - deyib.

Ekspertlər payızdakı seçkilərin Trampın 2-ci dəfə prezident seçilməsi yolunda, habelə istədiyi qanunları və islahatları həyata keçirmək üçün həyati önəm daşıdığını söyləyirlər. CNN kanalının icmalçısı Harri Estenin dediyi kimi, "prezidentin reytinqi bu cür seçkilərdə kilid rolunu oynayır. Seçkilərin özünü isə dövlət başçısına etimad referendumu da adlandırmaq olar".

Respublikaçıların təbliğat kampaniyasında şəxsən vitse-prezident Maykl Pens iştirak edib. Respublikaçılar partiyasının içində bəlkə də D.Trampdan da hörmətli sayılan vitse-prezident əvvəllər ştatın qubernatoru olub. Bundan başqa D.Trampın istədiyi namizədlər Ohayo və Qərbi Virciniya ştatlarında da ilkin seçkilərdə qalib gəliblər.

ABŞ prezidenti hətta indidən seçki qərargahını kimlərə tapşıracağını da müəyyənləşdirib. O, rəqəmsal texnologiyalar üzrə tanınmış mütəxəssislərdən sayılan Bred Paskalı özünün siyasi kampaniyasının meneceri təyin edib. Bred Paskal Trampın kürəkəni Cared Kuşnerə olduqca yaxın şəxs sayılır. Trampın reytinqinin aşağı olmasına rəğmən demokratlar onun qarşısına çıxa biləcək güclü rəqibi müəyyən edə bilmirlər.

"The Hill" qəzeti dövlət başçısına qarşı 36 demokrat namizədin adını çəkib. Bunların arasında senator Berni Sanders, ABŞ-ın keçmiş vitse-prezidenti Co Bayden, demokrat senator Elizabet Uorren də var. Hazırda D.Trampın reytinqinin yerlərdə süründüyünü söyləyənlər yanılmırlar. Son sorğularda əhalinin 41%-i prezidentin siyasətini bəyəndiyini bildirib. 53% isə ona qarşı çıxıb.

Trampa təskinlik verə biləcək yeganə gəlişmə iqtisadi göstəricilərlə bağlıdır. Belə ki, işsizlik 2000-ci ildən bu yana ilk dəfə 4%-in altına düşüb. Tikinti, sənaye və pərakəndə ticarət sahəsində isə güclü canlanma müşahidə olunur, on minlərlə yeni iş yeri açılıb.

## Ermənistanın sabiq müdafiə naziri Paşinyanı "savadsız" adlandırdı

**Ermənistanın sabiq müdafiə naziri Viqen Sarkisyan yeni baş nazir Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsi məsələsilə bağlı fikirlərini təhlükəli adlandırıb.**

"Bir neçə gün öncə mətbuat konfransı zamanı baş nazirin söylədiyi fikirlər təhlükəlidir. Əminəm ki, Paşinyan bu fikirlərilə Ermənistanda vəziyyəti çətinləşdirməyə çalışmayıb. Lakin onun səsləndirdiyi bəyanatlar nəinki Azərbaycanın aqressiv reaksiyasına, hətta beynəlxalq tərəfdaşlarımızın, xüsusilə də ATƏT-in Minsk Qrupu həmsədrlərinin narahatlığına səbəb olub". Oxu.az xəbər verir ki, bunu Sarkisyan "Ararat" qəzetində verdiyi müsahibədə bildirib.

Onun sözlərinə görə, baş nazir Ermənistanın münaqişə tərəfi olduğunu bəyan edib: "Bu əminliklə hər zaman Azərbaycan tərəfi çıxış edib. Həmçinin, beynəlxalq ictimaiyyət Ermənistanı Dağlıq Qarabağda təklükəsizliyinin təminatçısı kimi, danışıqlar tərəfdaşı kimi tanıyır, münaqişə tərəfi kimi deyil. Bu, pis nəticələnə bilər. Baş nazirin danışıqlar prosesində Ermənistan deyil, "DQR" çıxış etməlidir, deməsi də anlaşılmazdır. Belə çıxır ki, danışıqlar zamanı Ermənistan ayrı, "DQR" ayrı çıxış edəcək? İndiyə qədər bu, belə olmayıb. Daha sonra isə baş nazir danışıqlar üçün yeni yanaşmadan bəhs edib.

Ola bilsin ki, bu, ön şərtdir. Yəqin ki, o, "DQR" olmadan son qərara nail olunmaz, bildirmək istəyib. Bu mövqe dəfələrlə eks-prezident Serj Sarkisyan tərəfindən səsləndirilib və ATƏT-in Minsk Qrupuna həmsədr ölkələr tərəfindən də dəstəklənir", - deyə eks-nazir iddia edib.

Sabiq nazir Paşinyanın "DQR"in beynəlxalq aləmdə tanınması fikrini də "anlaşılmaz" adlandırıb: "Ermənistan hər zaman bəyan edib ki, statusun beynəlxalq tanınması nizamlama prosesinə də uyğun olmalıdır. Hər zaman tanınma ilə bağlı qətnamələri "DQR xalqı" üçün hörmət əlaməti olaraq alqışlamışıq. Lakin heç vaxt təşəbbüskar kimi çıxış etməmişik".

Onun sözlərinə görə, baş nazirin bəyanatlarında danışıqlar prosesindən xəbərsizlik də hiss olunur: "Nümunə üçün, sülhməramlıların yerləşdirilməsinin təsdiqi məsələsi heç vaxt günün mövzusu olmayıb. Sülhməramlıların yerləşdirilməsi məsələsi bir sıra sənədlərdə, məsələn, Madrid prinsiplərində öz əksini tapıb".

# "Sovetski"də qalan əhali kompensasiyanın artırılmasını istəyir

## Sakinlər: "Gərək kompensasiya verəndə nəzərə alsınlar ki, pul dəyərdən düşüb, torpaq, material bahalaşıb..."

**Bakının "Sovetski" kimi tanınan məhəlləsində yenidənqurma işləri sürətlənib. Hazırda ərazidə yeni söküntü dalğasının başlayacağı ilə bağlı rəsmi məlumatlar verilir. Lakin əhali hələ ki, gözləmə mövqeyindədir...**

"Sovetski" ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb. Bu prosesdə 4 min 300 ailə ərazidən çıxarılıb. Həmin ərəfədə bir neçə sakin etiraz etsə də sonda onlar da verilən 1500 manat kompensasiya ilə razılaşıb, evlərini tərk ediblər. Hazırda həmin sakinlər Bakının müxtəlif yerlərində məskunlaşıblar. Həmin köhnə evlərin yerində isə park salınır.

"Yeni Müsavat"ın əməkdaşı ərazidə olarkən öyrənib ki, hazırda park ərazisində tikinti işləri daha da sürətlənib. Burada artıq kommunikasiya xətləri çəkilib, başa çatıb. Bundan əlavə yol tikintiləri ilə bağlı da işlər yekunlaşıb. Hazırda park ərazisində tikililər tikilib, abadlıq işləri aparılır. Parkın ərazisi ümumilikdə 26 hektardır. Bildirildi ki, burda parkla bərabər böyük yaşıllıq ərazisi də olacaq. Park ərazisində tikintilərin 2017-ci ilin sonuna qədər yekunlaşacağı bildirilsə də bu proses yubandı. Lakin qeyd olunur ki, 2018-ci ilin sonuna qədər ərazidə işlər tamamilə yekunlanacaq. Müşahidə etdik ki, ərazidə xeyli sayda texnika, fəhlələr işləyirlər. Tikinti aparılan ərazi dəmir hasara alınıb. Piyadaların hərəkəti üçün pilləkən qoyulub, xüsusi yer düzəldilib. Avtomobillər isə yeni salınmış yoldan istifadə edə bilirlər.

Lakin park ərazisində tikintinin xaricində hələ ki, digər ərazilərdə söküntü işləri aparılmır. Ərazidə 2018-ci ildə 2010 yaşayış və qeyri-yaşayış binasının sökülməsi nəzərdə tutulub.

Hələ ötən ayın əvvəlində baş nazirin müavini olarkən Abid Şərifov "Real" televiziyasına açıqlamasında bildirmişdi ki, "Sovetski"də söküntü işlərinin davam etdirilməsi üçün vəsait ayrılıb: "Bu il və gələn il 2500-ə yaxın evin sökülməsi nəzərdə tutulub. 2500 evi köçürmək asan deyil. Ona görə də hazırlıq işləri gedir. Böyük ehtimalla aprelin sonu mayın əvvəlində söküntü işlərinə başlanılacaq. Söküntü işlərinin aparıldığı ərazilərdə yol çəkiləcək, yaşıllıq və park salınacaq. Başqa işlərdən söhbət gedə bilməz".

Lakin may ayında nə Abid Şərifov vəzifəsində qaldı, nə də haqqında danışdığı tikinti bumu başlamadı. Hazırda Abid Şərifovun vəzifələrinin icrası Bakının keçmiş icra başçısı Hacıbala Abutalıbova tapşırılıb. Belə görünür ki, bundan sonra "Sovetski"də söküntü işlərinə Hacıbala Abutalıbov rəhbərlik edəcək. Hacıbala Abutalıbovun söküntü işləri ilə arasının yaxşı olduğunu nəzərə alıb söyləmək olar ki, ərazidə yaxın vaxtlarda yeni söküntü dalğası başlaya bilər...

"Sovetski" sakinləri əvvəllər olduğu kimi söküntü işlərinə qarşı aqressiv görünmürlər. Hətta onların əksəriyyəti işlərin nə zaman başlayacağını səbirsizliklə gözləyir.

Olduğumuz Mirzağa Əliyev, Süleyman Rəhimov küçələrində həyat əvvəlki axarında davam edir. Yenə də uşaqlar dar küçələrdə daşlardan qapı düzəldib futbol, qocalar isə taxtadan düzəltdikləri stolun üstündə nərd və ya domino oynayırlar. Söylədilər ki, 3 il bundan öncə, yəni 2015-ci ilin may ayında onlara bildirilib ki, həmin ilin sentyabr ayından etibarən evlərini sökəcəklər. Sakin Murad Ağalarov aşağıdakıları bildirdi: "Gəlib mənzillərimizin ölçüsünü də götürdülər. Bildirdilər ki, kompensasiya məsələsində konkret söz deyə bilməzlər. Ancaq 2015-ci il, 2016 və 2017-ci illərdə bu küçələrin ətrafını söküb, bizim evlərə dəymədilər. Əvvəllər camaat narazı idi. Çünki burada hər kəs bir məhəllədə yaşayırdı. Yəni illər öncə olduğu kimi bilirdik ki, məsələn, Balababa Məcidov küçəsində Ağaşirin kişi yaşayır. Gedirdik ora, bir nərd oynayırdıq. İndi məhəllə darmadağın olub və bəzi küçələr qalıb. Qalanlarda söküntünün tozundan, texnikanın səsindən bezar olublar. Onsuz da köçürəcəklər. Nə qədər tez olsa, bir o qədər yaxşıdır. İndi gərək kompensasiya da verəndə nəzərə alsınlar ki, pul dəyərdən düşüb, torpaq, material bahalaşıb. Yoxsa əvvəlki kimi hesablayacaqlarsa evlərinin kvadratı az olan sakinlər küçədə qalacaqlar. Çünki torpaq baha, ev tikmək də çətindir. Elə icraya, ora-bura verəcəyimiz pul evə verilən kompensasiyanın miqdarı qədər olacaq. Ona görə də hökumət hər şeyi nəzərə almalıdır".









Sakinlər bildirdilər ki, əvvəllər söküntü işlərini aparanların ərazidə ofisi olurdu və yaxınlaşıb, məlumat ala bilirdilər: "İndi isə biz də özümüz barəsində, işlər haqqında ancaq mətbuat vasitəsilə xəbər ala bilirik. İcra hakimiyyətində olduğumuz zaman bizə dedilər ki, sənədləşmə işləri aparılır və yaxın zamanlarda söküntü işlərinə başlanacaq. Ancaq deyəsən yenə də bizim məhəlləni sona saxlayıblar. Çünki bildirdilər ki, söküntülər əsasən "Təzə Pir" məscidi istiqamətində aparılacaq".

Mirzağa Əliyev küçəsində yerləşən az kvadratlı evlərdə də vəziyyət eynidir. Orada da bütün mənzillər ölçülüb, qeydiyyata alınıb. Ancaq söküntü başlanılmayıb. Mirzağa Əliyev küçəsi dar, enişli-yoxuşlu və təmirsiz olduğu üçün burada həm də yolun təmir olunmasına ehtiyac var. Sakinlər bildirdilər ki, metroya yaxın olduğu üçün əvvəllər bu küçədə xeyli kirayə qalmaq istəyən olurdu. Söküntü ilə bağlı xəbərlər dolaşdıqdan sonra isə kirayə qalmaq istəyənlər də yoxdur. Ona görə də bu küçə başdan-başa köçürüləcəyi günü gözləyir.

İstirahət günü olduğu üçün rəsmi qurumlardan ərazi ilə bağlı yeni planlar barəsində məlumat ala bilmədik.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat".**
**Fotolar müəllifindir.**

# Demokratiya lokomotivinin depoya sürülməsi



**Samir SARI**

**Oxumuş adamlar deyir ki, inqilablar permanent olmalıdır, yəni arası kəsilməməlidir, elə hey davam etməlidir - 3-5 ildən bir.**

Əlbəttə, oxumuş adamlar belə deyərkən, qanlı inqilabları - silahlı üsyanları, hərbi çevrilişləri, "qara polkovnik"lərin qiyamlarını nəzərdə tutmurlar.

Hansı ölkədə 3-5 ildən bir elə hadisələr olsa, camaatda can qalmaz, qırılıb gedərlər.

Oxumuş adamlar xalq etirazlarını, "məxməri inqilablar"ı nəzərdə tuturlar, hesab edirlər ki, xalq bu gün ayağa qalxıb bir partiyanı hakimiyyətə gətirirsə, sakitləşib yerində oturmalı, ölkəni dircə o partiyaya verməli deyil, 3-5 ildən sonra, lazım gəlsə, o partiyanı istefaya göndərməli, yerinə başqasını gətirməlidir.

Yaxşı, birdən "məxməri inqilab"la gəlmiş, eləcə də getmiş A. partiyasının yerinə gələn B. partiyası da işi yarıtmadı, onda necə olsun?

Demokratiyada çarə tükənməz, oxumuş adamlar bunun da yolunu bilirlər: sırada C. partiyası var. O da etimadı doğrultmasa, əlifbada hərf bitmir ki... adı o biri hərflərlə başlayan partiyalardan birini seçmək olar. Ta o vaxta qədər ki, ölkəni idarə edən partiya özünü yaxşı aparsın.

Güzəranı yaxşı olan ölkələrin hamısı belə eləyib. Buna görə heç bir ölkəyə "gündə bir hökumət dəyişən ölkə" deyib töhmət eləmirlər.

Budur, Ermənistanda xalq çıxdı, küçədə hökumətlə bir az süpürləşdi, iqtidarı dəyişdi. Hazırda Gürcüstanda da süpürləşmə prosesi gedir, məsələnin axırı necə olacaq, heç kəs bilmir. Çörçill də sağ deyil ki, gələ, Qafqaz demokratiyasına qiymət verə, deyə ki, bu da düz-əməlli idarəetmə üsulu deyil, amma bəşəriyyət bundan yaxşısını icad etməyib.

Bizim inqilab həvəskarları da qonşu ölkələrdə gedən proseslərə baxır, həm həvəslənir, həm də məyus olurlar. Xüsusilə də gənclər.

Çünki deyilənə görə, inqilabi hərəkatların lokomotivi gənclərdir.

Zamanında biz də lokomotiv olmuşuq. Söz vaxtına çəkər, 1992-ci ilin bu vaxtlarıydı, nə təhər lokomotiv olduqsa, demokratiya qatarını yerindən tərpətdik, ayın 14-də yenidən hakimiyyətə qayıdan Mütəllibovu 15-də təzədən devirdik.

Yeganə pis iş o oldu ki, bir də gördük, lokomotivi olduğumuz qatarı maşinistlər depoya sürüb. O vaxtdan bəri çox çalışdıq, geri qayıdıb "Gənclik"dən çıxmaq istədik, çıxanda gördük ki, gənclik əldən gedib. Daha Koroğlu olub, "Koroğlu"dan çıxmağın da xeyri yox idi, dəlilik edəndə tutub Kürdəxanıya aparırlar.

Baxıram, indinin gənclərindən fəallıq, coşğunluq umanlar çoxdur. Amma bu, elə şeydir ki, umacaqla-filanla olmur. Gərək şərait yetişsin.

Məsələn, erməni gənclər Sarkisyanın köhnə qaydaları ilə yaşamaq istəmədilər, Sarkisyan da onları köhnə üsullarla idarə edə bilmədi, Paşinyan isə əlverişli şəraitdən istifadə etdi.

Gürcüstanda da gənclər yenilik istəyir. Özü də o biri qafqazlılardan fərqli olaraq, ictimai-siyasi fəallıq gürcülərdə, oxumuş adamların sözü olmasın, permanent xarakter alıb, onlar artıq hökumət dəyişməyin çəmini, yol-yolağasını bilirlər. Güman ki, İvanişvilinin dəstəsini də yola salacaqlar.

Ancaq əgər bizdə gənclər öz hallarından məmnundurlarsa, demokratiya qatarına lokomotiv olmaq istəmirlərsə, ta nə etmək olar? Demək, şərait yetişməyib, xalq əvvəlki qaydalara idarə olunmağa etiraz etmir, hökumət də köhnə üsullarla idarə edə bilir.

Əsas məsələ məmnuniyyətdir. Tərəflər hallarından məmnundurlarsa, istəyirsən, Trotskini dirilt gətir, heç bir inqilab edə bilməz.

Bir dəfə bir oxumuş (eyni zamanda çox gəzmiş) adamla bir gur magistralın qırağındakı çayxanada oturub çay içə-içə söhbət edirdik, mövzumuz bu kimi məsələlər idi - demokratiya, xalq, ictimai-siyasi fəallıq-filan.

Qəfildən qardaş əlini uzatdı, şəhərə girən və şəhərdən çıxan minlərlə bahalı avtomobili, onların yaratdığı ikitərəfli tıxacı göstərib dedi: "Bax, onları görürsən? Hərəsi bir evə gedir. Ən ucuz maşının qiyməti 10 mindir. Hələ 30-40 minlik ciplərə bax, sayı-hesabı yoxdur. Səncə, bunlar etiraz edərlər?"

Baxdım, baxdım, dedim ki, axı ölkədə heç də hamının cipi yoxdur, güzəranı ağır olanlar, maddi sıxıntı çəkənlər də çoxdur.

Həmsöhbətim dedi: "Çoxdurlarmı? Çoxdurlarsa, ortalığa çıxsınlar də. Deyək ki, özləri təşkilatlana bilmirlər. Elan edilmiş mitinqlərə qatılmağa sözləri nədir?"

İzləyək, görək, gürcülər nə edir? 8 ildir həyatımız televizordan inqilab izləməklə keçir. Əslində çox maraqlıdır.



# İran ətrafındakı qovğa Azərbaycan layihələrini vura bilərmi?

## Mübariz Əhmədoğlu: "İlin sonunda İrana qarşı hərbi əməliyyatlar başlayacaq"

**İranla ABŞ və İsrail arasında münasibətlər günbəgün daha da gərginləşir. ABŞ prezidenti Donald Trampın İranla imzalanan nüvə sazişindən çıxmaq haqqında qərarı bölgədə açıq savaş təhlükəsindən xəbər verir. Bu da faktdır ki, Trampın məlum qərarı NATO daxilində də birmənalı qarşılanmayıb. Bunu ABŞ-ın müttəfiqlərinin Trampa qarşı tənqidlərindən də görmək olur.**

Lakin görünən budur ki, ABŞ İrana qarşı iqtisadi təzyiqlərini bir az da artıracaq. Bəzi ekspertlərin fikrincə, bu hal bölgədə yeni düzənin yaranmasına gətirib çıxara bilər.

Azərbaycanın da İranlı əməkdaşlığı var və iqtisadi baxımdan bir sıra layihələr nəzərdə tutulub. Bəs onlara hər hansı təhlükə varmı?

"Yeni Müsavat"a mövcud siyasi vəziyyətlə bağlı açıqlama verən politoloq Mübariz Əhmədoğlu bildirdi ki, İrana görə Azərbaycana təzyiqlər var: "Lakin Azərbaycan bu təzyiqləri neytrallaşdıra bilir. Ola bilər ki, Amerikadan, İsraildən müəyyən adamlar Azərbaycandan incisinlər. Lakin Azərbaycan bu dövlətlərin sözü ilə İranla olan layihələrinə heç bir dəyişiklik etməyib və görünən budur ki, etməyəcək də. Ölkə prezidenti siyasəti quran zaman hədsiz dərəcədə parametrləri nəzərə alır. İkincisi də doğrudan da bizim siyasətimiz müstəqil siyasətdir. Siyasi müstəqilliyimiz isə bizə çox divident gətirib. Bu siyasətdən imtina edə bilmərik. O da nəzərə alınmalıdır ki, İran Azərbaycanla münasibətdə elə vəziyyət yaradıb ki, ölkəmizə Amerikanın, İsrailin təzyiqləri artsın. İran Azərbaycana bu təzyiqlərin azalması istiqamətində heç bir yardım etmir. Çox arzu ediləndir ki, İran Azərbaycana qarşı bir qədər realist siyasət aparsın. Obrazlı dildə desək, İranın siyasətində əyləc yoxdur. Ona görə də hər kəsə qarşı şübhə ilə yanaşır. Şübhənin də çoxu hazırda Azərbaycana qarşıdır. Hesab edirəm ki, Azərbaycan İranla bağlı təzyiqləri neytrallaşdıracaq və heç bir anti-İran əməliyyatlarında iştirakçı olmayacaq. Ölkə prezidenti deyir ki, Azərbaycan heç zaman riskli proseslərdə iştirak etməyib və etməyəcək. İndi Azərbaycan üçün də İran ətrafında yaranan məsələlər riskli proseslərdir".

Politoloq bildirib ki, İranın özünü bir sıra məqamlar gözləyir: "Ali rəhbər açıqlayıb ki, 2018-ci ilin son 3 ayı ərzində Amerika İranda rejimi dəyişmək istəyir. Hadisələr də elə o istiqamətdə gedir. Amerika və İsrail də getdikcə İrana qarşı təzyiqlərini artırırlar. Təzyiqlərin nəticəsi bu ola bilər ki, İran ABŞ-la danışıqlara getsin. Tehran bu danışıqlara gedərsə, müharibə təhlükəsi sovuşar. İranla da ABŞ arasında danışığın əsas mövzusu ikinci tərəfin istəkləridir. ABŞ-ın bu istəkləri isə İranın Türkiyəyə, Rusiyaya qarşı çıxış etməsi, ABŞ-ın siyasətinə xidmət etməsidir. İran bunları qəbul edir. Bu dövlət Rusiyanın, Səudiyyə Ərəbistanının, yeri gəlsə Türkiyənin də əleyhinə çıxa bilər. İranın Rusiya ərazisində siyasəti xeyli gücləndib. Bununla əslində İran öz mövqeyini gücləndirir. Sadəcə olaraq onların Amerikadan istədikləri budur ki, ABŞ Çini bu siyahıdan çıxarsın. Hazırda Amerika tərəfi yeni dialoq təklif edib və İran da bunu qəbullanıb. Sadəcə olaraq İran istəyir ki, bu dialoq köhnə baza üzərində davam etsin. Ümumiyyətlə deyim ki, "Altılıq"la İran arasında danışıqlar gedən zaman ayrıca İran-ABŞ danışıqları da keçirilirdi. İndi də Tramp istəyir ki, əvvəlki danışıqlar modeli sıradan çıxsın və yeni təməl qurulsun. Hələ ki, İran bunu rədd etməyib. Gərginliklər genişlənən zaman İranın xarici işlər naziri Amerika ilə dialoqa hazır olduqlarını bildirdi. Ancaq ortaya konkret mövzu qoymadı. Sadəcə, mövzu kimi dedi ki, İranda həbs olunan ABŞ vətəndaşları ətrafında danışacaqlar. Hal-hazırda Amerika və İsrailin əsas məqsədi İranı dialoqa gətirməkdir. Əksi olacaqsa, ilin son 3 ayında İrana qarşı hərbi əməliyyatlar başlaya bilər. Artıq ABŞ-ın İrana qarşı siyasi təzyiqi hərbi təzyiqlə paralel gedir. Amerika və İsrailin Suriyada apardığı müharibə də İranın Suriyadakı hərbi iştirakına qarşıdır. İran faktiki olaraq Suriyanı da gərgin vəziyyətə qoyub. Əgər geri çəkilməsə, ABŞ İŞİD-in vasitəsilə Suriyada elə bilmədiyini İranın əli ilə edəcək".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Neft kəskin bahalaşacaq" iddiasına reaksiyalar

## Ekspert: "Sentyabrdan etibarən hökumət manatı az da olsa ucuzlaşdıracaq, çünki..."

**"Bank of America Merrill Lynch" beynəlxalq investisiya bankı məlumat yayıb ki, neftin bir barelinin qiyməti gələn il 100 dollar səviyyəsinə çata bilər. Ekspertlərə görə, gələn il qlobal neft bazarında tələb-təklif tarazlığı pozulacaq. "Bank of America" "Brent" markalı xam neftin bir barelinin orta qiymətinin 2018-ci ildə 70 dollar, gələn il isə 75 dollar olacağını proqnozlaşdırır.**



"Bank of America"nın əmtəə araşdırmaları üzrə direktoru Francisco Blanche bildirib ki, 2019-cu ilin ikinci yarısında "Brent" markalı neftin qiymətinin 90 dollar/barrel olacağını gözləyirik. "Brent" neftinin qiyməti gələn il 100 dollar/barrel səviyyəsinə də yüksələ bilər", - deyə bankdan qeyd ediblər.

Bəlli olduğu kimi, Azərbaycanda milli valyutanın məzənnəsi birbaşa neftdən asılıdır. Bəs neftin dünya bazarında bahalaşması manat-dollar münasibətinə necə təsir edəcək?

"Yeni Müsavat"a danışan iqtisadçı Natiq Cəfərli bildirdi ki, əslində dünyada neftin qiyməti ilə bağlı bir-birinə zidd məlumatlar dolaşır: "Bu məlumatların hamısı da siyasi gərginliklərlə bağlıdır. Yeni iqtisadi təməli olmayan qiymət artımından söhbət gedir. Çünki fundamental səbəblər neft üzərində tələb-təklif və bir də hasilatın həcmi ilə bağlı olub. Bu iqtisadi amilləri əsas götürsək, əslində neftin qiyməti enməli idi. Çünki hasilat da kəskin artır, istehlakla da bağlı rəqəmlər gözləntilərdən aşağıdır. Dünyada artıq alternativ enerjiyə keçən ölkələrin də sayı çoxalır. Bu isə istehlakçının azalması deməkdir. Bu fundamental parametrlər işləsəydi, neftin qiyməti 50 dollardan yuxarı olmazdı. Ancaq siyasi və hərbi gərginlik olduqda bir gözlənti formalaşır ki, məsələn İranla-İsrail və ya Amerika arasında geniş müharibə olacaqsa bu, qiymətlərə təsir edəcək. İran dünyada neft ehtiyatlarının həcminə görə ilk üçlükdə, neft istehsalına görə isə ilk beşlikdə olan ölkədir. Oradan dünya bazarına çıxan neftin həcminin azalması və gələcəkdə İranla bağlı problemlərin yaşanması gözləntisi formalaşıb ki, bu da qiymətlərə təsir edib. Əslində təkcə bu da deyil. Səudiyyə Ərəbistanı ilə Yəmən arasında da gərginlik davam edir. Bu yaxınlarda Yəmən tərəfindən atılan raketlərin Səudiyyə tərəfindən vurulması xəbərləri dolaşdı. Raketlər də əsasən neftlə zəngin olan bölgələrə atılır. Bu faktın özü də psixoloji gərginlik yaradır. Səudiyyə Ərəbistanı dünyada hələ ki, ən çox neft istehsal edən ölkədir. Orada hər hansı neft yatağına raket düşərsə, hərbi münaqişə olarsa, neftin qiyməti kəskin şəkildə bahalaşacaq. İrana qarşı sanksiyaların tətbiqi və digər məsələlər əslində qiymətlərə psixoloji təsir edir. Çünki İran Amerikaya neft satmırdı. İranın əsas alıcıları Avropa Birliyi ölkələri, Hindistan və Çindir. Onlar da bəyan etdi ki, sanksiyalara qoşulmayacaqlar. Buna baxmayaraq psixoloji gərginlik səbəbindən qiymətlər bahalaşdı. Əgər qeyd etdiyimiz ölkələr sanksiyaya qoşulsaydı, ciddi qiymət artımı yaşanacaqdı. Hələ ki, bu yoxdur".

Ekspert məsələ ilə bağlı əks proqnozlar verənlərin də az olmadığını dedi: "Bank of Amerika" qiymətin 100 dollar olacağını desə də, "Mood"s, "Fitch" kimi çox məşhur agentliklər kəskin qiymət enməsini gözləyirlər. "Mood"s elan edib ki, qiymət 50 dollara qədər aşağı enəcək. Onunla əlaqələndirdi ki, İran sanksiyalardan yan keçmək üçün daha çox və ucuz neft satmağa başlayacaq. Bu da qiymətləri aşağı çəkəcək. Neftin qiyməti ilə bağlı proseslər iqtisadi səbəblərdən doğmadığı üçün dayanıqlı deyil. Nə vaxt dünyada gərginlik aşağı düşəcəksə, o zaman daha kəskin qiymət enməsini görə biləriк. Düşünmürəm ki, dünya iqtisadiyyatı bahalı neft qiymətinə hazırdır. Əksinə, dünya iqtisadiyyatında son zamanlar az da olsa canlanmanın baş verməsi neftin qiymətinin ucuzlaşması ilə əlaqədar idi. Ucuz neft ən azından xidmət sahəsində, daşımada qiymətləri ucuzlaşdırdı ki, bu da ticarət dövriyyəsinə müsbət təsir etdi".

N. Cəfərli hesab edir ki, neftin qiyməti artsa da, manatın məzənnəsində bahalaşma gözlənilmir: "Məntiqlə əslində neftin qiyməti bahalaşdıqca, manatın da dollara nisbətdə bahalaşmasını görməli idik. Bir ildir ki, 1 dollar 1 manat 70 qəpikdir. Mərkəzi Bank son hesabatında göstərdi ki, məzənnə inzibatidir. Yeni üzən məzənnəyə keçdiklərini elan etsələr də son hesabatlarında "üzən məzənnə" sözü belə yoxdur. Keçən ilin bu vaxtlarından başlayaraq manatın məzənnəsi eyni olaraq qalır. Ötən ilin may ayında neftin qiyməti 47 dollar, manatın da məzənnəsi indiki kimi idi. Bu il isə neft 78 dollara satılır, manat-dollar münasibəti isə dəyişməyib. Bu onu deməyə əsas verir ki, hökumətin də marağı var ki, manatın məzənnəsinin oynamasına imkan verməsin. Ona görə də manatın bahalaşacağını düşünmürəm. Azərbaycan iqtisadiyyatı neftdən kəskin şəkildə asılıdır. Dövlət büdcəsinin də formalaşmasında Neft Fondu müstəsna rol oynayır. Bu il Neft Fondundan büdcəyə birbaşa transfer 50 faizdən yuxarıdır. Əgər manat bahalaşsa, Neft Fondundan daha çox dolların manata çevrilib, büdcəyə transferinə ehtiyac yaranacaq. Azərbaycan hökuməti Neft Fondundakı valyutanı qoruyub, artırmağa çalışır. Onlara da sərf etməz ki, manatın dəyər qazanmasına inzibati qaydada şərait yaratsınlar. İlin sonuna yaxın Amerikada dolların bahalaşması gözlənilir. Federal Ehtiyatlar Sistemi (FED) iki dəfə faiz artımına gedəcək. Ona görə də manatın əksinə bir az ucuzlaşması baş verə bilər. FED ilin sonuna qədər 3 dəfə faiz artımına gedə bilər. Bu baş versə, dünyada dollar kəskin bahalaşacaq. Dünyada da dolların qalxması bizim ətraf ölkələrə təsir edir. Görürük ki, Rusiyada, Türkiyədə, İranda, Qazaxıstanda milli valyuta ciddi dəyər itirir. Düzdür, hamısının fərqli səbəbləri olsa da, əsas səbəb dolların bahalaşma gözləntisidir. Belə olan təqdirdə Azərbaycan manatının baha olması ölkədə cücərtiləri formalaşan qeyri-neft sektoruna ağır zərbə vura bilər. Biz yenidən idxalçı ölkəyə çevrilib, hər şeyi xaricdən almağa başlayacağıq. Bu isə daha kəskin devalvasiyaya gətirib çıxara bilər. Ona görə də düşünürəm ki, qonşulara paralel olaraq sentyabrdan etibarən hökumət manatı az da olsa ucuzlaşdıracaq. Lakin kəskin devalvasiya gözləmirəm. Maksimum il sonuna manatın dollara nisbətdə məzənnəsi 1.80-1.85 ola bilər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018

**28 May - Cümhuriyyət Günü ərəfəsində prezident İlham Əliyev tərəfindən növbəti əfv sərəncamı imzalanacaq". Bunu "Yeni Müsavat"a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü Əliməmməd Nuriyev deyib.**

# Gələn həftə böyük əfv olacaq - siyahı yekunlaşır

## Əliməmməd Nuriyev: "Komissiyaya elə şəxslər müraciət edib ki..."

O bildirib ki, növbəti həftə Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası bitir: "2018-ci ilin fevral ayından başlayaraq Əfv Məsələləri Komissiyası öz iclaslarına başlayıb. Bu günə qədər 10-dan çox iclas keçirilib, minə yaxın müraciət və vəsadətlərə baxılıb. Komissiya daxil olan bütün müraciət və vəsadətlərə hərtərəfli baxır. İclaslar çox geniş müzakirə formasında davam edir. Əfv prezidentin müstəsna koalision səlahiyyətlərinə daxil olan hüquqlardandur. Bu hüquq yalnız tam həcmdə prezidentə məxsusdur. Əfv Məsələləri Komissiyası daxil olan müraciətlərə baxıb tövsiyə xarakterli rəylərin hazırlanması ilə bağlı qərar qəbul edir, amma son söz prezidentindir. Cümhuriyyət bayramı ərəfəsində çoxsaylı məhkumların və onların ailə üzvlərinin sevincinin şahidi olacağıq. Prezident İlham Əliyev növbəti əfv sərəncamı imzalayaraq xeyli insanı azadlığa çıxaracaq. Ümid edirəm ki, əfv sərəncamı ilə bağlı adları siyahıda olan şəxslər gələcəkdə öz fəaliyyətlərini özləri, yaxınları, həmçinin, dövlətin və millətin maraqları naminə qurmağa çalışacaqlar".

Ə.Nuriyev əfv üçün daxil olan müraciətlər istisnasız olaraq hamıya eyni yanaşma tətbiq olunduğunu söylədi: "Ayrı-seçkilik və digər məsələlər heç vaxt Əfv Məsələləri Komissiyasının iclaslarında müşahidə olunmayıb. Hər kəs qanun qarşısında bərabərdir. Eyni zamanda daxil olan müraciətlər də diqqətlə araşdırılır və burada bir çox kriteriyalar var. İlk növbədə məhkumun etdiyi cinayətin xarakteri, onun şəxsiyyəti, səhhətinin vəziyyəti, eyni zamanda əməyə münasibəti, islama münasibəti, cəzaçəkmə müəssisəsində bütövlükdə davranışı, həmçinin, zərərçəkmişin mövqeyi, dövlətin və ictimaiyyətin maraqları, dəymiş ziyanın ödənilib-ödənilməməsi, cəzanın çəkilməmiş müddəti və s. ciddi müzakirə olunur və ortaq qərarlarla rəy hazırlanır. Təbii ki, son siyahı prezident tərəfindən müəyyən ediləcək. Prezident İlham Əliyev bizim tövsiyə xarakterli rəyləri nəzər ala, ya imtina edə, yeni adlar əlavə edə də bilər. Əfv edərkən mərhəmət, humanizm və humanitar prinsipləri tətbiq edilir. Bu prinsiplərə söykənərək prezident istənilən şəxsi əfv edə bilər, yaxud intina edə bilər".



Əfv Məsələləri Komissiyasın üzvü onu da qeyd etdi ki, ancaq kriteriyalara uyğun gələn müraciətlər baxılıb təmin edilir: "Müraciət edənlər arasında elə şəxslər var ki, çox ağır cinayətlər edib, uzun müddəti cəzaları var, cəzanın da çox az hissəsini çəkib. Elələri də var ki, cinayət əməllərində şəxsiyyətə zorakılıq tətbiq olunub, yaxud səhlənkar hərəkətləri nəticəsində xeyli insan ölüb. Müraciətlər arasında vətəndaşın əmlakına külli miqdarda ziyan vurmuş və ziyanı ödəməyənlər, vətənə, dövlətə xəyanət, ağır hərbi cinayətlər edənlər də var. Bu baxımdan da qərar verərkən mütləq ziyanın ödənilməsi məsələsi, zərərçəkmişin mövqeyinə də diqqət edilir. Zərərçəkmişin yaxın qohumu öldürülüb, arada barışıq əldə edilməyibsə, tək məhkumun mövqeyi nəzərə alınmır. Kompleks şəkildə qiymətləndirilir. Mütləq cəmiyyətin maraqları nəzərə alınır. Dövlətə, vətəndaşa dəymiş ziyanın ödənilib-ödənilməməsinə diqqət edilir".

Siyahıda sensasion adların olub-olmamasına gəlincə isə, Ə. Nuriyev bunları söyləyib: "Kimin fəal, kimin qeyri-fəal olması Komissiya üzvləri üçün fərq etmir. Hər şeydən əvvəl yanaşma məhkuma olan yanaşmadır. Şəxs məhkum edilib, onun barəsində qanunla məhkəmə qərarı var. Biz bu məhkəmə qərarı müəyyən edildiyindən və həmin şəxs barəsindən qanun qüvvəyə mindiyindən məsələyə yalnız bu nöqtədən baxırıq. Nə apelyasiya instansiyasıyıq, nə də digər məhkəmə orqanlarıyıq ki, onun təqsirli olub-olmaması tərəfi ilə bağlı fikir yürüdə bilək. Yenə deyirəm, əsas humanitar yanaşma, mərhəmət hissidir. O şəxsin təqsirli, yaxud təqsirsiz olub-olmaması artıq arxada qalıb. Digər sərəncamlara da baxsanız, görərsiniz ki, orada müxtəlif kateqoriyadan cinayət törətmiş insanların adlarını görə bilərsiniz".

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

# Sənətçilərin Ramazan planları

## Çoxu oruc tutacaq, bəziləri isə...

**İki gün sonra Mübarək Ramazan ayı başlayır. Dini baxımdan bu ayda toylara qadağa olmasa da, xalqımız orucluqda toy şənlikləri keçirmir. Bu səbəbdən Ramazan ayı gəliri toylardan çıxan müğənnilərin gəlirsiz və bekar qaldığı aylardan sayılır. Ona görə də müğənnilər bu ayda ya istirahət edir, ya da yaradıcılıqla məşğul olurlar.**

Maraqlıdır, bəs sənətçilər arasında kimlər oruc tutacaq, onların Ramazan planlar nədir? Musavat.com olaraq bu sualı bir neçə müğənniyə ünvanladıq.




Müğənni Leyla Ramazanlı hər il olduğu kimi bu il də oruc tutacaq: "Soyadım da elədir - Ramazanlı. Allaha inamım böyükdür. Ona görə də həmişə oruc tuturam. Ramazan ayında tətilə çıxmayacağam. Yaxın vaxtlarda təzə mahnım çıxacaq. Ona görə də tətilə çıxmıram, işləyirəm. Yeni mahnımı kliplə birgə təqdim edəcəyəm".

Rahidə Baxşova da hər il Ramazan ayında oruc tutanlardandır: "Bu il də oruc tutacağam. Tutulan oruclar Allah dərgahında qəbul olsun, İnşallah!".

Müğənni Şəbnəm Tovuz da Ramazan ayına ciddi hazırlıq görür: "Orucluqda bağa köçəcəyik. İnşallah, ailəlikcə oruc tutacağıq".

Konsertə hazırlaşan Lalə Məmmədova müqəddəs ayda oruc tutmağı vacib bilir: "İşlərimlə əlaqədar səfərlərdə oluram, bacardığım qədər oruc tuta bilirəm. Oruc tutmağı vacib bilirəm. Çox gözəl ənənədir. Həm mənəvi, həm də fiziki cəhətdən insana çox böyük güc-qüvvə verən sınaqdır. Ramazan ayında bütün müsəlmanlara bu sınaqdan üzüağ çıxmağı arzu edirəm. İnşallah, bütün arzu niyyətlərin ən xeyirlisini qismət edər".

Ulduzu son illərdə parlayan Damla isə səhhəti ilə əlaqədar oruc tuta bilməyəcək: "Sağlamlığım oruc tutmağa imkan vermir. Ramazan ayında gərgin iş qrafiki olacaq. Konsert hazırlıqları ilə məşğul olacağam".

❑ **LƏMAN, "Yeni Müsavat"**

# Azərbaycanlı deputatlar Gürcüstana gediblər




**Milli Məclisin Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşovun başçılığı ilə qrupun üzvləri Kamilə Əliyeva, Pərvin Kərimzadə, Naqif Həmzəyev, Rasim Musabəyov və Hikmət Məmmədov mayın 13-də Gürcüstana gedibər.**

Milli Məclisin mətbuat xidmətindən bildirilib ki, deputatlar mayın 16-dək Tbilisidə səfərdə olacaqlar. Gürcüstan-Azərbaycan parlament dostluq qrupunun dəvəti əsasında həyata keçirilən səfər çərçivəsində iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişafına dair müzakirələr aparılacaq.

Milli Məclisin nümayəndə heyətinin Gürcüstanda bir sıra rəsmi şəxslərlə görüşləri də nəzərdə tutulub.

# İş yerini dəyişmək istəyən müəllimlərin nəzərinə



**Müəllimlərin iş yeri diaqnostik qiymətləndirilmədə və ya işə qəbul üzrə müsabiqədə iştirak etdiyi ixtisas üzrə dəyişdirilir. APA-nın xəbərinə görə, bu "Təhsil Nazirliyi sistemində daxil olan ümumi təhsil müəssisələrində müəllimlərə tələbatın müəyyənləşdirilməsi, pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydalar"ında öz əksini tapıb.**

Qaydalara əsasən, ilk peşə, orta ixtisas və ali təhsil müəssisələrindən, digər dövlət qurumlarının tabeliyindəki və özəl təhsil müəssisələrindən müəllimlərin iş yerinin Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə dəyişdirilməsi müəllimlərin işə qəbulu üzrə müsabiqə yolu ilə həyata keçirilir.

Nazirlər Kabinetinin 14.04.2010-cu il tarixli 67 nömrəli qərarı ilə tənzimlənən həvəsləndirmə tədbirlərinin tətbiq olunduğu müəssisədə işləyən gənc mütəxəssislərin qərarda nəzərdə tutulmuş müddət başa çatanadək iş yerinin dəyişdirilməsinə icazə verilmir. Bu şəxslərin əri və ya arvadı hərbçi olduqda, şəhid ailəsinin üzvü olduqda və ya ailə vəziyyəti ilə bağlı problemlər olduğu hallarda məsələyə fərdi qaydada nazirlik tərəfindən baxılır.

Vakansiyalara yerləşdirilmə zamanı müəllimlərin işə qəbulu müsabiqəsi və ya diaqnostik qiymətləndirilmədə toplanılan bal əsas götürülür. Namizədlər müəllimlərin işə qəbulu üzrə müsabiqədə və ya diaqnostik qiymətləndirilmədə 2 və ya daha çox sayda iştirak etmişlərsə, üstünlük verdikləri balla müsabiqəyə qatıla bilərlər.

Aşağıda qeyd olunan sosial amillərlə əlaqədar namizədlərin topladıqları bal artım əmsalı ilə hesablanır:

- Əri və ya arvadı hərbçi və ya özü şəhid ailəsinin üzvü olan namizədlərin topladıqları bal 1,1 (bir tam onda bir) artım əmsalına vurularaq hesablanır.

- İş yerini özünün faktiki yaşayış yeri və ya qeydiyyatda olduğu ərazidə yerləşən həvəsləndirmə tədbirləri tətbiq edilən müəssisəyə dəyişdirən namizədlərin topladıqları bal 1,05 (bir tam yüzdə beş) artım əmsalına vurularaq hesablanır. Qeyd olunan hallardan hər iki şərti ödəyən namizədlərin topladığı bal ən yüksək artım, yəni 1,1 (bir tam onda bir) artım əmsalına vurularaq hesablanır.

Ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin tədris ili ərzində qarşılıqlı razılıq əsasında dəyişdirilməsi məsələsinə Təhsil Nazirliyi tərəfindən fərdi qaydada baxılır. Bu halda müəllimlərin diaqnostik qiymətləndirilmədə göstərdiyi nəticə, müəssisələrin yerləşdiyi rayon və şəhər, dərs yükünün həcmi və digər amillər nəzərə alınır.

Qeyd edək ki, Təhsil Nazirliyi sistemində daxil olan ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin eyni rayon (şəhər) daxilində, bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişməsini proqram təminatı tətbiq olunmaqla 1-15 iyun tarixlərində təşkil ediləcək.

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018

# "Koroğlu" MMC-də Eldar Mahmudov çetesinin izləri - sensasion faktlar

## Şirkətdə borc bataqlığına salınan işçini soyunduraraq videosunu çəkiblər; işgəncələrə dözməyən işçilər intihar ediblər...

**İctimai vəkil Samir Zeynalov "Koroğlu" MMC-də baş verən cinayət xarakterli işlərlə, habelə digər qanunsuzluqlarla bağlı geniş məlumat verib. Onu dinlədikcə göz önünə Eldar Mahmudovun rəhbərlik etdiyi "MTN çetesi"nin vaxtı ilə törətdiyi qanunsuzluqlar göz önünə gəlir. Samir Zeynalov deyir ki, şirkətdə adam oğurluğu, işçilərin qanunsuz azadlıqdan məhrum edilməsi, iplə boğma, vəhşicəsinə döymə kimi hallar adiləşib. İşçilərə qarşı cinayətlər araşdırılmır deyə hər dəfə daha geniş miqyaslı qanunsuzluqlar baş verir.**

Samir Zeynalov bildirir: "İctimaiyyət nümayəndələrimiz, QHT mənsublarımız və səlahiyyətli dövlət mənsublarımız uzun müddətdir ki, ölkəmizdə reketçiliyi, qanunsuzluqları və anti-sosial əməli fəaliyyəti ilə nüfuz qazanan "Koroğlu" MMC şirkəti haqda səslənən təkzib olunmaz faktlarla tanış olmaqdadırlar. Buna baxmayaraq dövlət və cəmiyyət adına hədsiz zərər vuran əməllərə birbaşa sahiblənən "Koroğlu" MMC barəsində qanuna müvafiq tədbirlərin görülməsi bilinməyən səbəblərdən dolayı bu günə qədər gecikir. Qeyd edim ki, bu şirkət məhkəmə-hüquq işləri üzrə tarixi-praktikada ən çox adı hallanan şirkətdir. 1992-ci ildə təsis olunan "Koroğlu" MMC ölkəmizə qənnadı məmulatlarının idxalı, müxtəlif adlar və çeşidlər üzrə istehsalı ilə məşğuldur. Şirkətin hazırkı icraçı direktoru Rəşad Əliyevdir. Bundan əvvəl isə hazırkı vəzifəni "Koroğlu" MMC-nin neqativ fəaliyyəti ilə bağlı ən çox adı hallanan Rəşad Əliyevin əmisi Tahir Əliyev icra edirdi. Şirkət şəbəkə marketlər, kiçik sahibkarlıq üzrə fəaliyyət göstərən mağazalara və digər istehlakçı sifariş subyetlərinə ölkəyə idxal etdiyi və istehsal etdiyi məhsulların dağıtımını həyata keçirir. Şirkət birmənalı olaraq marketinq prinsipi ilə məhsullarının satışını gerçəkləşdirmir. İstehlak bazarında qənnadı məmulatlarına hər zaman tələbatın olduğunu nəzərə almaqla məhsulları məcburi olaraq ticarət nümayəndələrinin adına buraxılır. Hər bir vətəndaş ticarət nümayəndəsi işinə qəbul olunarkən aylıq nəzərdə tutulan plan-limiti təmin etmə kimi öhdəliyə yiyələnir. Belə ki, bir işçinin adına aylıq məcburi olaraq çıxan 10-20 min manatlıq malların satışından həmin işçilərə maaş olaraq həmin malların maliyyə dəyərinin 16-20 faizi miqdarında nominal əmək haqqı ödənilir. Real əmək haqqı isə bağlanılan əmək müqaviləsinə görə ənənəvi olaraq minimum əmək haqqından cüzi miqdarda yüksək olmaqla - 177, 180 AZN civarında göstərilir(vergidən yayınma). Qeyd edim ki, ticarət nümayəndələrinin adına çıxan malların satışı gerçəkləşmədikdə, həmin malların son istifadə tarixinin bitməsinə görə külli miqdarda şirkətə qaytarılması səbəbindən bu mıhsulların maliyyə dəyərinin 90 faizi həcmində işçilərə cərimə tətbiq edilir. Həmin andan etibarən cərimə sanksiyasına məruz qalmış işçilər "Koroğlu" MMC rəhbərliyinin ağır borc köləliyi altında çalışmağa ya məhkum olurlar, ya da adlarına yazılmış cərimə borclarını ödəməyə məcbur olurlar".

Onun sözlərinə görə, nəticə etibarı ilə şirkət rəhbərliyi hər bir halda özünü sığorta etməklə bərabər, öz işçisinə və cəmiyyətə misilsiz maddi-mənəvi zərər vurur: "Bu barədə daha dəqiq olaraq analoji faktlara diqqət yetirməkdə fayda var: Şirkətin keçmiş ticarət nümayəndəsi Namiq Məmmədov bildirir ki, 2010-cu ilin avqustunda o, şirkətin Sabunçu rayonunda yerləşən ofisinə çağırılıb (metronun "Koroğlu" stansiyası və "Bakıxanov" qəsəbəsi arasındakı yol). Orada icraçı direktor Tahir Əliyevin iştirakı ilə ondan firmaya 20 min manat borcunu ödəməyi tələb ediblər. O, borcu olduğunu etiraf etməkdən imtina etdikdə amansızcasına döyülüb. Sonra onu şirkətin hüquq şöbəsinin rəhbəri kimi adı keçən Emin Babaşovun başçılığı altında çılpaq soyunduraraq kamera ilə çəkiblər və müəssisə əməkdaşları arasında həmin videonu yayıblar. Bundan sonra ağır vəziyyətdə olan Məmmədovu məhsul verdiyi mağazalardan pul toplamaq üçün Şirvan şəhərinə aparıblar. Növbəti gün onu yenidən şirkətin ofisinə çağırıblar, yenidən döyüblər və çəkilmiş kadrları internetdə yayacaqları ilə hədələyiblər. Bundan sonra Məmmədov borcunu etiraf etməsi barədə kağız imzalayıb. İndi onu təqib edərək pulları tələb edirlər.



**"Koroğlu"da vəhşicəsinə döyülən işçiyə həkimlər beyin və daxili orqanlarının zədələnməsi diaqnozu qoyub!**

Tusi adına klinikanın həkimləri tərəfindən beyni və daxili orqanlarının zədələndiyi təsdiq olunmuş Namiq Məmmədov Türkiyəyə qaçmaq məcburiyyətində qalıb.

Namiq Məmmədovun yaxınları hüquq-mühafizə orqanlarına müraciət etməkdən qorxurdular. Belə ki, "Koroğlu" MMC onları müxtəlif dövlət orqanlarında yüksək vəzifəli himayədarları olduğu ilə hədələyirdi. Yalnız bu ilin aprelində ölkə rəhbərliyinin korrupsiyaya qarşı mübarizə elan etməsindən sonra Namiq Məmmədovun anası Südabə Məmmədova oğlunun başına gələnlər barədə mətbuata danışmağı qərara alıb. DİN rəhbərliyi buna reaksiya verib və Sabunçu polisinə faktları araşdırmağı tapşırıb. Lakin 12-ci polis bölməsi zərərçəkmişin şikayətinin olmadığını əsas gətirərək, cinayət işi başlamayıb. Qeyd edim ki, hüquq-mühafizə orqanlarına bəlli olan ağır cinayət işləri üzrə zərərçəkmiş şəxsin şikayət ərizəsinə ehtiyac duyulmur. Belə ki, şirkət rəhbərliyi tərəfindən insan oğurluğu, hədələmə, döymə, hədə-qorxu və işgəncə yolu ilə pul tələb etmə, qanunsuz həbsdə saxlamaq kimi bir sıra ağır cinayətlər törədilib".

**İşçini vəhşicəsinə döyüb atasını girov götürüblər!**

Şirkətin digər keçmiş əməkdaşı Elgün Teymurov da analoji səbəblərlə döyüldüyünü qeyd edir. Bundan başqa, onun atasını bir müddət girov kimi şirkətdə saxlayıblar. Şirkətin daha bir əməkdaşı Mirrəhim Qənizadənin də atasının və əmisi oğlunun başına eyni oyun açılıb. Qənizadə öz avtomobilini şirkətin "cəza qrupunun" üzvlərindən birinin adına keçirdikdən sonra onları buraxıblar.

**"Koroğlu"da işgəncə otağı var!**

O, digər əməkdaşların bütün kollektivin gözü qarşısında döyülməsinin və təhqir edilməsinin şahidi olduğunu təsdiq edib. Qənizadənin sözlərinə görə, ofisdə insanların girov saxlanılması və döyülməsi üçün istifadə olunan xüsusi otaqlar var.

Şirkətin keçmiş əməkdaşı Vəkil Quliyevin də paltarlarını soyundurub videoya çəkiblər: "Şirkətin rəhbəri Tahir Əliyev gəlib istehza ilə deyib ki, Prezident Administrasiyasında da, prokurorluqda da mənim adamlarım var, istədiyim adamın başına oyun açaram. Polisə getsəniz, onları da susduracağıq".

Şikayətçi deyir ki, "Koroğlu" MMC-nin rəhbəri Tahir Əliyev dəfələrlə iclas keçirərək işçiləri təhdid edib: O deyib ki, "kimin pulu mənim pulumdan çoxdur? Kim bizdən böyükdür? Bu ölkəni idarə edən qollardanıq. Özünüzü yığışdırın, çaşmayın".

**"Gördüm ki, Saleh adlı iş yoldaşımın boğazına ip keçirib sürüyürlər"**

Şirkətin keçmiş əməkdaşı Arif Əliyev deyib ki, işgəncə halları "Koroğlu" şirkətində artıq normaya çevrilib: ''Mən uzun zaman orda işləmişəm. Bir dəfə öz gözlərimlə gördüm ki, Saleh adlı iş yoldaşımın boğazına ip keçirib sürüyürlər. Pillələkəndən sürüyə-sürüyə yuxarı qaldırdılar. Saleh huşun itirdi. Tahir Əliyev özü gəlib Salehin dilini çölə çıxarıb qucağına alıb apardı. Çünki qorxurdular ki, ölüb üstlərində qalar. Şirkət "vorzakon"luqla məşğuldur. Müəyyən nüfuzlu şəxslərin adını hallandırır və əllərindən nə gəlirsə edirlər. Balalarımın canına and olsun, şirkətdə işləyənlərin hamısının bütün məsələlərdən xəbəri var".

**"Get, kimə istəyirsən şikayət elə, arxamda general dayanıb!"**

Şirkətin digər keçmiş və həbs edilən əməkdaşı Fuad Əzimovun anası Zöhrə Əzimova isə təşkil etdiyi mətbuat konfransında qeyd edib ki, MMC rəhbəri T.Əliyev oğluna vaxtı keçmiş mal yollayıb və buna görə ondan 780 min manat pul tələb edib. T.Əliyevdən şikayət edəndə isə "Get, kimə istəyirsən şikayət elə, arxamda general dayanıb" sözlərini eşidib.

Şirkətin keçmiş əməkdaşı Asif Rəhimovu da analoji qondarma ittihamlara və bərbad, qanunsuz iş sisteminə görə döyüb evinin kupçasını əlindən alıblar.

**"Koroğlu" saxta qaimə-fakturalarla külli miqdarda vergidən yayınır"**

Şirkətin keçmiş əməkdaşı Rauf Əliyev 5 il əvvəl - 2013-cü ildə "Koroğlu" MMC-nin direktoru Tahir Əliyevin idarəetmə sisteminə etiraz olaraq şirkətdə tutduğu yüksək vəzifədən imtina edərək ayrılıb. Bundan sonra Tahir Əliyev dəfələrlə onu şirkətə qaytarmaq istəyib. Rauf Əliyev rəsmi olaraq əmək kitabçasına qeyd olunmaqla 01.02.2013-cü il tarixdə işdən ayrılıb. Buna baxmayaraq o gündən sonra yenə də onun adına şirkətdən qənnadı məmulatlarının müstəqil istiqamətdə çıxışı həyata keçirilib. Şirkətə yenidən qayıtdıqdan sonra məsələni aydınlaşdırıb, buna etirazını bildirib. Məlum olub ki, işdən uzaqlaşdığı müddət ərzində adına qeyri-qanuni olaraq 134 min 471 manat həddində mal buraxılıb. Həmin vəsaitin 25 min manatı naməlum formada mənimsənilib.

Rauf Əliyev apardığı araşdırma zamanı müəyyən edib ki, şirkət daxilində 93 min 184 manat 81 qəpik kəsir var. Bu haqda hesabat hazırlayıb Tahir Əliyevə təqdim edib. Elə bundan sonra da Rauf Əliyevin qara günləri başlayıb. Həmin kəsiri dolayısı ilə elə onun özünün "ayağına" yazıblar. Bakı Ağır Cinayətlər Məhkəməsində "Koroğlu" MMC-nin işçisi Rauf Əliyevin cinayət işi üzrə məhkəmə prosesi sona çatmaq üzrədir. Cinayət işinə hakim Mahmud Ağalarovun sədrliyi ilə baxılır. Rauf Əliyev şirkətin 120 min manata yaxın pulunu mənimsəməkdə ittiham olunur.Ona qarşı irəli sürülən ittiham isə heç bir sübuta malik olmamaqla bərabər, bumeranq xarakterlidir. Belə ki, "Koroğlu" MMC-in ittiham üzrə istifadə edilən saxta qaimə-fakturalar külli miqdarda vergidən yayınma faktıdır.

Samir Zeynalov bildirir ki, "Koroğlu" MMC-nin apardığı qanunsuzluqlara, özbaşınalıq hərəkətlərinə dözməyərək, intihar etmiş şəxslər də çox təəssüflər olsun ki, mövcuddur: "Həmin şəxslərin də adlarını təqdim edirəm:

**1.** İsmayıllı rayonu Aşağıbaş kənd sakini, 1990-cı il təvəllüdlü Tofiq Adıgözəlov ( İntihar tarixi 14.05.2014).

**2.** Gəncə şəhər sakini, 1981-ci il təvəllüdlü Xəyyam Vüsal oğlu Nağıyev (İntihar tarixi 05.12.2011).

Göründüyü kimi, "Koroğlu" MMC-nin rəhbərlik səviyyəsində neqativ təmayüllü uzun tarixi əhatə edən əməlləri mütəşəkkil cinayətkar dəstənin fəaliyyəti haqqında real təsəvvür yaradır. Nəticə etibarı ilə onu da qeyd edim ki, "Koroğlu" MMC tərəfindən istehlaka təqdim edilən mallar külli miqdarda son istifadə müddətləri bitməsinə rəğmən belə müəssisədə yenidən qablaşdırılaraq istehlaka təqdim edilir. Bununla da ölkə miqyasında görünməmiş antimilli, antisosial, xəyanət tərkibli əməllərə imza atılır".

**Qeyd:** *Yazıda adı hallanan şəxslərin də mövqeyini dərc etməyə hazırıq.*

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018

# "Paşinyanın vertolyotuna tərəf atəş açılsaydı..."

## Tofiq Zülfüqarov: "Sərbəst olanda bəzi məsələləri daha açıq demək imkanım olur"

**"Baxış bucağı"**

**Ötən həftə Ermənistanın baş naziri Nikol Paşinyanın işğal altındakı Azərbaycan ərazilərinə gələrək sərsəm bəyanatlar verməsi Qarabağ danışıqlarının perspektivini sual altında qoydu. Əksər ekspertlər hesab edirlər ki, bundan sonra İrəvanla aparılacaq danışıqların heç bir mənası qalmır. Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a müsahibəsində hazırkı durumu şərh etdi və gözləntilərini bölüşdü.**

***- Tofiq bəy, bəziləri Ermənistanın yeni hökumət başçısının Azərbaycanla münasibətlərin normallaşdırılması siyasətini yürüdərək ölkəsini dalandan çıxaracağını zənn etsə də, əksini müşahidə etdik. Sizcə, Nikol Paşinyanın sələflərindən də radikal mövqe nümayiş etdirməsinin səbəbi nədir?***

- Əvvəla, Paşinyanın Qarabağa aid hansısa bəyanatlar verməkdə məqsədi heç də Azərbaycanla danışıqlar aparmaq deyil. Sadəcə, bu bəyanatlar daxili siyasətdə istifadə olunmaq üçün verilir. Çünki böhran onu göstərir ki, artıq ermənilər arasında bölünmə var: Qarabağ və Ermənistan erməniləri. Eyni zamanda, iqtisadi bölünmə mövcuddur. Bu baxımdan Paşinyanın bəyanatları daha çox daxili siyasi məqsədlərə xidmət edir. Çünki Paşinyan Qarabağ klanına qarşı mübarizədə istəmir ki, ona "Qarabağ satqını" deyilsin və bu və ya digər tənqidlərdən istifadə edilsin. Bu baxımdan çox radikal, sərt bəyanatlar verdi. Hamı başa düşür ki, bu bəyanatlar real şəkildə nə danışıqlar prosesində öz əksini tapacaq, nə də Azərbaycan bu bəyanatları ciddi qəbul etməməlidir. Məsələn, onun bəyanatlarından biri bundan ibarətdir ki, Dağlıq Qarabağ erməniləri tərəf kimi danışıqlara qayıtsın. Birincisi, bu, danışıqların formatına aid bir mövzudur. İkincisi, format məsələsi beynəlxalq səviyyədə və Azərbaycan tərəfindən qəbul olunmuş sənədlərdə nizamlanıb. İndi Azərbaycan nəyə görə bu mövqeyi dəyişməlidir? Üçüncüsü, Azərbaycan üçün işğal olunmuş torpaqların azad olunması, Ermənistan ordusunun ərazilərdən çıxması mövzuları maraq kəsb edir. Yəni bu mövzulara aid təzə heç nə bəyan olunmayıb. O halda nəyə görə Azərbaycan ermənilərin maraq göstərdiyi məsələlərə önəm versin? Bu da məntiqsiz bir şeydir.

***- Fakt budur ki, Paşinyan danışıqlar prosesini 1994-cü ilə qaytarmaq istəyir. O zaman da Qarabağ ermənilərini masaya gətirmək cəhdi var idi və bu iddia yenidən ortadadır...***

- Onların iddiası çoxdan var idi. Bununla bağlı hamıya məlum vəziyyət mövcuddur. Maraqlı tərəf kimi, bunlar Minsk konfransında iştirak edə bilərlər, vəssalam. Özü də işçi iclaslarda. Plenar iclaslarda dövlətlər iştirak edir. Bu baxımdan o məsələyə qayıtmaq mümkün deyil.

***- Bəs, Azərbaycan bu vəziyyətdə nə etməlidir?***

- Siyasi proseslərin məntiqi gətirib ona çıxarır ki, Paşinyan ilk gündən addımbaaddım səhvlər edir. Bir səhvi də ondan ibarətdir ki, ümumiyyətlə, onun hakimiyyətə gəlməsi Rusiyanın heç də alqışlamadığı bir hadisədir. Bu da bəllidir ki, Rusiya Ermənistandan uzaqlaşır və İrəvan-Moskva əlaqələri böhran vəziyyətindədir. O məsələlər nə şəkildə həll olunacaq, hələ bilinmir. Bu baxımdan Azərbaycan vəziyyəti diqqətlə izləməlidir. Bir dəfə də demişəm, yenə təkrar edirəm, ermənilərə təkrar imkan verək ki, onlar səhvlərini davam etdirsinlər.

***- Nə qədər müddət ərzində?***



**"Ermənilər danışıqlar prosesini məhv edib"**

- Müddəti deyə bilmərəm. Səhvlərin kritik çəkisi ciddi şəkildə çoxalandan sonra hansısa məqamda biz daha aktiv addımları ata bilərik. Baxaq, görək Rusiya-Ermənistan münasibətləri nə şəkildə pisləşəcək və hansı dərəcəyə gələcək. Bu tendensiya artıq mövcuddur, gözləyək, görək necə olur.

***- Amma bəzi ekspertlər hesab edirlər ki, gözləmək, fürsəti əldən vermək bizim xeyrimizə deyil. Deputat Qüdrət Həsənquliyev bu günlərdə bildirdi ki, torpaqları azad etmək üçün şans yaranıb və Bakı Moskva ilə danışıqlara gedib hərbi əməliyyatlara başlamalıdır. Siz bu fikirlərlə razısınız?***

- Bu qərarı qəbul etmək üçün daha çox məlumat olmalıdır. Yəni hərəkətə keçmək üçün ilk növbədə ordunun vəziyyətini bilməliyik.

***- Müdafiə naziri Zakir Həsənov bəyan etdi ki, ordu genişmiqyaslı hərbi əməliyyatlara hazırdır...***

- Həmçinin, beynəlxalq oyunçuların və faktorların bizim xeyrimizə olub-olmaması, onların dinamikasının nə şəkildə qurulacağı da çox vacib məsələdir. Ermənistanın daxilindəki böhranın tendensiyası onun dərinləşməsinə doğru gedir. Məsələn, həm polis rəisi yeni adam təyin olunub, həm də müdafiə naziri. Təbii ki, təzə adam heç də köhnə adamların tam ürəyincə olmayacaq. Bu da böhranlı istiqamətdir. Baxaq, görək onların arasında bu böhran hansı şəkildə inkişaf edəcək, dağılma prosesi nə dərəcəyə gələcək. O da bizimçün vacib amildir. Yəni ölçülmüş bir siyasət olmalıdır. Şəxsən məndə o qədər məlumat yoxdur ki, deyim əməliyyatı bu gün edək, sabah edək, yoxsa dünən etməliydik. Hansısa qərar qəbul etmək üçün məlumat lazımdır. Beynəlxalq vəziyyət necədir, Rusiyadan gələn siqnallar nə göstərir, Qərbin mövqeyi nədən ibarətdir, Qarabağ klanı Paşinyanın dəstəsi ilə necə rəftar edəcək və s. suallara cavab olmalıdır.

***- Paşinyan baş nazir seçildikdən sonra qanunsuz olaraq Azərbaycan ərazilərinə uçduğu zaman onu vurmalıydıq, mövqeyi oldu. Siz necə düşünürsünüz, vurmalıydıqmı?***

- Hər halda Paşinyanın vertolyotuna tərəf atəş açılsaydı, pis olmazdı. İndi dəyəcəkdi, dəyməyəcəkdi, bu, başqa məsələdir, ən azı qorxutmaq lazım idi ki, belə sərbəst uçmasın. Digər tərəfdən, atəşə tutmaq həm də atəşkəs rejimindən çıxmaqdır. Mən istisna etmirəm ki, Qarabağ klanı da bizə qarşı hansısa hərbi provokasiya edə bilər - aprel döyüşlərindəki kimi. Ona cavab olaraq, təbii ki, hansısa addımlar atmaq lazımdır. Yəni vəziyyət elə olmasın ki, biz atəşkəsi pozduq. Əksinə, elə vəziyyət yaransın ki, biz onlara cavab zərbəsi endirək, bu da beynəlxalq səviyyədə daha müsbət qəbul edilən vəziyyət olacaq.

***- Bir zamanlar sizin rəhbərlik etdiyiniz xarici siyasət idarəsinin Paşinyanın səfərinə münasibətini yetərli sayırsınızmı? İndiki durumda XİN necə davranmalıdır?***

- Əlbəttə, belə vəziyyətdə ictimaiyyətlə əlaqələr daha sıx olmalıdır. Mətbuatla daha ciddi şəkildə işləmək lazımdır. Biz başa düşməliyik ki, məlumatların yayılmasında məqsəd nədir, bizi hara çəkmək istəyirlər. Bu baxımdan indiki vəziyyət bir az gərgindir və ictimai rəylə əlaqələrin gücləndirilməsinin yalnız faydası var. Təbii ki, Paşinyanın Qarabağa gəlişinə sərt reaksiya verilməliydi. Hesab edirəm ki, bəyanat təkcə mətbuat katibi səviyyəsində yox, daha ciddi şəkildə olmalıdır. Paşinyan orda bəyan etdi ki, bu, xalqların öz müqəddəratını həll etmək xarakteri daşıyan bir prosesdir və burada "Artsax xalqı" öz "dövlət"ini yaradıb. Amma onun Qarabağa gəlməyi onu göstərir ki, təkcə bu məsələ deyil. Bu, Ermənistanın işğalıdır və anneksiya cəhdidir. Ermənistanın orada qoşunlarının olması, pullar dövriyyəsi, uzun müddət Qarabağdan çıxan insanların Ermənistandakı seçkilərdə iştirak edib prezident olması onu göstərir ki, bu, heç də separatizm halı deyil, anneksiyadır. Biz bu mövqeyi daha ciddi şəkildə beynəlxalq ictimaiyyətə çatdırmalıyıq.

***- Prezident Armen Sarkisyan Ermənistanın BMT-dəki daimi nümayəndəsi Zoqrab Mnatsakyanı xarici işlər naziri vəzifəsinə gətirdi. Bu təyinat haqda nə demək olar?***

- Yəni açıq şəkildə qərbyönlü insanlar hakimiyyətə gətirilir. Bu da Rusiyanın xoşuna gəlməyəcək. Bu baxımdan təbii ki, böhran üçün daha böyük əsaslar yaranacaq.

***- Qarşıdakı aylar üçün nə proqnozlaşdırırsınız?***

- Ermənistan daxilindəki böhranın cizgiləri artıq bəllidir. Bu, daha da dərinləşəcək. Dövlət strukurlarının zəifləməsi və bəlkə də dağılması istisna olunmur. Bundan sonra Rusiya-Ermənistan əlaqələri daha da kəskinləşəcək. Bunu əvəzləmək üçün ermənilər Azərbaycana qarşı daha kəskin və təxribatçı bəyanatları çoxaldacaqlar. Mən istisna etmirəm ki, təmas xəttində bizə qarşı təxribatlara əl ata bilərlər. Onların marağı ondan ibarətdir ki, biz ermənilərə zərbə vuraq və daxildəki prosesləri məhz Azərbaycan istiqamətində yönəltsinlər. Onların taktikası təxminən belədir. Təbii ki, bu taktikaya bizim də qarşılıq verməyimiz lazımdır və fikrimcə, olacaq. Biz həmişə vurğulamalıyıq ki, onlar təxribat edirlər. Yoxsa biz erməniləri vururuq, yaxud vuracağıq, kimi bəyanatlara ehtiyac yoxdur. Nə qədər çox düşmənin təxribatlara əl atdığını bəyan etsək, bizimçün daha yaxşıdır.

***- Belə demək olarmı ki, Ermənistan bu dəfə aprel döyüşlərindəki kimi, təxribatlara əl atsa, əməliyyatlar müəyyən ərazi ilə məhdudlaşmamalıdır, sonadək gedilməlidir?***

- Hamımız Allaha dua edirik ki, belə olsun. Amma hesab etmirəm ki, bunu rəsmi şəkildə demək lazımdır. "Təxribata cavab olaraq vurduq", demək kifayətdir. Ermənilər sülhdən danışa-danışa gəlib 20 faiz torpağımızı işğal edib. Onlar səhərdən-axşamadək sülhdən danışırdılar. Biz də onlardan nəsə öyrənməliyik, yoxsa yox?

***- Necə bilirsiniz, danışıqlara limit tərtib etməyin zamanı çatmayıbmı?***

- Rəsmi limitin tərəfdarı deyiləm. Çünki danışıqlarda heç vaxt biz tərəfdən rəsmi limit qoyulmamalıdır. Biz deməliyik ki, erməni tərəf elə şərait yaradıb ki, danışıqlar mənasını itirir. Yenə də deyirəm, biz onların təxribatına cavab olaraq nə isə etməliyik. Çünki beynəlxalq səviyyədə təbliğatın öz qaydaları və xüsusiyyətləri var. Daxili siyasətdə təbii, bəzən tələb olunur ki, ictimai rəy nəzərə alınaraq danışılsın. Amma beynəlxalq təbliğatda bu fikir vurğulanmalıdır ki, Ermənistanın danışıqlar prosesinə təxribatçı mövqeyi və əməlləri gətirib ona çıxarıb ki, faktiki olaraq danışıqlar yoxdur.

***- Maraqlısı budur ki, həm Armen Sərksiyan, həm də Nikol Paşinyan Qarabağ danışıqlarında iştirak etmək istəyir. Danışıqlar üçün növbəti təşəbbüs olarsa, sizcə, bu prosesdə Azərbaycandan kim iştirak etməlidir?***

- Əvvəlcə gərək ermənilər öz aralarında uzun-uzadı diskussiya aparsınlar, dəqiqləşdirsinlər ki, danışıqlarda kim iştirak edəcək. Ümumiyyətlə, onlar tərəfdə üç "namizəd" var, Bako Saakyan da iştirak etmək istəyir. (gülür). Hələ onlar öz aralarında bir qərara gəlsinlər. İkincisi, o demək deyil ki, biz hamıya razılıq verəcəyik. Demək olar ki, ermənilər danışıqlar prosesini məhv ediblər. Ter-Petrosyanın vaxtilə dediyi kimi, bu, onların ən böyük səhvləridir. Maraqlı bir şeydir ki, Paşinyan Ter-Petrosyanın tərəfdarı idi, amma indi Petrosyan onu tənqid edir.

Danışıqların perspektivinə gəldikdə, belə bəyanatlar olsa, mən inanmıram ki, Azərbaycan bunlarla danışmağa çox həvəsli olacaq. Ermənilər və həmsədrlər əgər danışıqların bərpasını istəsələr, demək, ortaya hansısa real fikirləri qoymalıdırlar. Bu fikirlər isə bu və ya digər şəkildə tərəflərin mövqeyinə əsaslanaraq hazırlanır və irəli sürülür. Biz Paşinyandan elə bəyanatlar eşitdik - onlarla bağlı yuxarıda fikrimi bildirdim - bunlar Azərbaycan üçün heç bir maraq kəsb etmir...

***- Tofiq bəy, yeri gəlmişkən, hansısa vəzifə ilə bağlı sizə təklif gəlməyib ki?***

- (gülür) Yox. Hamı soruşur, amma... İndiki vəzifəm məni tam qane edir. Zəng edirsiniz, nələrsə müzakirə edirik. Hər halda ictimaiyyətə xidmət edirəm. Hesab edirəm ki, bunun kiçik də olsa, ictimaiyyətə xeyri var. Mən sərbəst olanda bəzi məsələləri daha səmimi, açıq demək imkanım olur. Azdan-çoxdan bunun da xeyri var...

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Ekvatorial Qvineyanın həsrətində

Zamin HACI
zaminhaci@gmail.com

"Bir ölkə var Limpopo,
Orda olur Hippopo"
***(Korney Çukovski, "Doktor Aybolit", ya da "Oqtay doktor" əsərindən)***

****

**Yenə köhnə nazirlər yeyib-doymuşdular, təzələrini onların yerinə qoymaq bəlkə də düzgün deyildi. Ümid edirəm rəhbərlik heç zaman bu cümləni oxumayacaqdır. Yanlış cümlə olduğunu acizanə surətdə etiraf edirəm. Bizdə bütün qərarlar düzgün verilir. Keçək Ermənistana... Əşşi, orda da keçiləsi bir yer qalmayıbdır, dağılıb gedir. Qarabağlıların dünyada hakimiyyətdə olduğu yeganə ərazi idi, oranı da əllərindən aldılar. Nəhayət Ermənistan da bir ermənistanlı başçı üzü gördü, yoxsa 30 ildir gah qarabağlılar, gah suriyalılar orada hakimiyyəti ələ keçirirdilər.**

Sözümün canı odur ki, Ermənistan dağıldığı, boşaldığı üçün tema kimi əhəmiyyətini itirmişdir. Olmayan bir şeydən nə yazasan? Almaniyadan yazmaq olardı, onun da kökünə rəhmətlik AzTV İbrahim müəllim baltanı vurub getdi. Hərçənd, bəzi savadsız zəhmətkeşlərimiz hələ də zənn edirlər Almaniya adlı dövlət qalır. Bu yaxında bir tanış küçədə qabağımı kəsib görün nə deyir: "Uşaq yekəlib, heç bilmirəm neyləyim, kömək elə bunu Almaniyaya göndərək". Doğrusu qabaqca çaşıb qaldım, fikirləşdim bəlkə məni Almaniya səfirliyinə, konsulluğuna-zada işə götürüblər, heç özümün xəbərim yoxdur. Söhbət açıldı, sən demə tanış mənim jurnalist işlədiyimi, müxalif dairələrlə əlaqələrimi bilir, istəyir uşağa nəsə təzyiq olması haqda kağız-kuğuz uyduraq, bu da çıxıb getsin, gün görsün, adam olsun. Uşaq deyəndə, yekə kişidir, Bakıda universiteti bitirib, ancaq heç bir iş tapa bilmir. Ev yox, ailə qurmaq mümkünsüz, perspektiv tam dumanlı... Minlərlə azərbaycanlıdan, üzr istəyirəm, almandan biri...

Mən tanışla siyasi söhbət apardım, ona respublikamızın işıqlı gələcəyi haqda məruzə elədim. (Bunu xüsusilə birinci cümləmdən təsirlənmək ehtimalı olan əlaqədar orqanların mütəxəssisləri üçün yazıram). Dedim darıxmasın, təzə kənd təsərrüfatı nazirimiz, maşallah, hər yerdə fermerlərlə görüşür, qucağına quzu alır. Təzə ekologiya nazirimiz qabaqkı nazirin vaxtında kəsilən ağacların kötüyündən öpüb təzəlikcə kliplərə çəkilməyə başlamış görkəmli şairimiz Ramiz müəllimin şeirini oxuyur:

"Gözəl kötük,
yaraların köz bağlasın, sağalsın,
Bu dünyada nə baltalar,
Nə bıçaqlar qalacaq.
Ucalıqdan yıxılsan da,
Yenə canın sağ olsun,
Bu dünyada
Sən yıxılan ucalıqlar qalacaq..."

Poeziya çələngi, nəğmə buketi bu qədər. Daha sonra tanışa dedim ki, ən azı qaçqın işinə düzəlmək imkanı var, çünki Qaçqınkom-un rəhbərliyi də dəyişilibdir. Lap o yana qalanda, ölkədən getmək istəyən zəhmətkeşlərimizə məsləhət görərdim istiqaməti doğru seçsinlər. Bizə ruhən yaxın, doğma ölkələri seçməliyik.

Niyə axı mühacirət üçün dinimizin beşiyi Ərəbistanı seçməyək? Yaxud, şiə qardaşlarımızın İranı, sünni qardaşlarımızın pak islam dövləti Pakistan deyibən qaçmayaq? Belə xoşagələn dövlətlər çoxdur. Birini tanıtmağa xüsusi ehtiyac duyuram.

Afrikanın ortalarında bir Ekvatorial Qvineya adlı dövlət vardır. Neft ölkəsidir. 1968-ci ildə ispanların müstəmləkəsindən qurtulub müstəqillik elan ediblər, o vaxtdan bəri cəmi 2 başçı dəyişilib. Bunlardan birincisi, Ekvatorial Qvineyanın müstəqilliyinin banisi Fransisko Nqema Ndonqo (ardı da vardı, məncə bizə bu qədəri bəsdir) daha yaddaqalan olmuşdur. Ndonqo müəllim 1979-cu ilədək, 10 illik hakimiyyəti dövründə camaatın yarıdan çoxunu qırıb, didərgin salmışdır. 300 min əhalidən 140 mini qalıbmış. 12 nazirdən 10 nəfərini öldürüb yerlərinə qohumlarını qoymuşdu. Polis naziri dövlətin talançılığına etiraz edəndə prezident onu şəxsən tüfəngin qundağı ilə döyüb öldürüb. Bütün məktəbləri bağlayıb, təhsil naziri bununla razılaşmayanda bunun da boynunu vurdurub. İşıqları tamam keçirtdiribmiş. Hər gün fikirləşirmiş daha nəyi qadağan edim, bir gün "intellekt" sözünü bərkdən deməyə də qadağa qoyub. Ölkə xəzinəsini tamam boşaldıb, pulları öz sarayında... çarpayının altına yığıb. Necə gözəl adam imiş, ilahi! Elə camaatı da məcbur edirmiş kilsələrdə "Ndonqo Allah"ın şərəfinə dualar oxusunlar. Xəzinəni doldurmaq üçün xariciləri girov tutub qohumlarına satırmış. Nəhayət prezident qvardiyasının rəisi olan qohumu Teodoro Obianqo Nqema (bu da bura qədər bəsimizdir) bezib bunu hakimiyyətdən aşırıb. Meşəyə qaçan diktator özüylə dövlətin xəzinəsini də aparıb - çamadanlarda. Bir müddət sonra bunu cəngəllikdə tutublar, ancaq çamadanlar boş imiş. Sən demə prezident bu müddətdə pulları yeyirmiş. Fantastikadır. Ancaq qahımı bunun bu gözəlliyini müvafiq qiymətləndirə bilməyib - edam etdirib. Bu zaman da bir ləzzətli fakt yaşanıb: yerli əsgərlər Nqema müəllimi Allah saydıqları üçün ona güllə atmağa qorxublar, edam üçün Mərakeşdən əsgərlər gətirilib. Və elə o vaxtdan bəri Teodoro müəllim Ekvatorial Qvineyanın əvəzedilməz lideridir. Bu hakimiyyətə gələndə mənim 5 yaşım olub. Ən son dəfə 2016-cı ildə 93 faiz səslə yenidən prezident seçilibdir.

İmkanlı bir media qurumu ola, adamı bu ölkəyə müxbir işləməyə göndərə... Yoxsa Almaniyada nə var? Hitler 33-cü ildə gəlmişdi, gördük də...



# Paşinyan bu gün "Məhşər ayağı"na çəkilir - Kremlin Qarabağ şərti

## Soçidə Ermənistanın yeni baş naziri "xalça üzərinə" çağırılacaq; Putin Saakaşvili olmaq istəyən Nikol Paşinyanı sərkisyanlaşdıra biləcəkmi? - rəy və gözləntilər...

**Ermənistanın yeni baş naziri və eyni zamanda, 1-ci şəxsi Nikol Paşinyan erməni ənənəsinə uyğun olaraq xaricə ilk səfərini Rusiyaya edəcək. Bu gün Soçidə o, Avrasiya İqtisadi Birliyinin toplantısına qatılacaq və tədbir çərçivəsində ilk dəfə Rusiya prezidenti Vladimir Putinlə görüşəcək.**

Səfərlə bağlı ən mühüm məqam da elə budur. Çünki məhz həmin görüşdə Putin Paşinyanı haqq-hesaba, rusların təbirincə desək, "xalça üzərinə" ("na kovyor") çağıracaq və ondan bir daha, qətiyyətli şəkildə Kremlə sədaqət və zəmanət bəyanatları tələb edəcək, xarici siyasət kursunda hansı prioritetlərə üstünlük verdiyinə, Qarabağ, hərbi bazalar məsələsində nə düşündüyünə əminlik hasil etməyə çalışacaq. Bu xüsusda 14 may Nikol Paşinyanın siyasi taleyi baxımından həlledici gün sayıla bilər. Bunu hətta gizli qərbçi Paşinyan üçün "Məşhər günü" də hesab eləmək mümkündür.

*****

Aydın məsələdir ki, Putin üçün Paşinyan hələ açılmamış "boğçadır" və Kreml başçısı onu tam açmağa, hərtərəfli "duymağa" çalışacaq. Bu mənada Putinin yeni baş nazir seçilməsi ilə bağlı Paşiyanı hamıdan tez təbrik eləməsi özlüyündə hələ heç nə demir, Paşinyana simpatiya ifadə eləmir, hansısa üstünlük vəd eləmir. Bu, sadəcə, onun göstəricisi idi ki, Rusiya lideri də mayın 8-də Nikol Paşinyanın baş nazir olacağını bilirdi. O üzdən Putin əslində bu təbriklə siyasi bir jest edərək, Ermənistanın başında kim olur-olsun, onun Rusiyanın orbitində qalacağı barədə incə xatırlatma edib.

Analitiklərin bugünkü krtik görüşlə bağlı proqnoz və gözləntiləri Azərbaycan, Qarabağ kontekstində də diqqət çəkir. Politoloqlara görə, Ermənistandakı hazırkı nisbi sakitlik müvəqqəti xarakter daşıyır və əsas çətinliklər, böhranlı durum hələ qabaqdadır. Çünki işğalçı ölkə siyasi, iqtisadi, hərbi və təhlükəsizlik baxımından bütünlüklə Rusiyadan asılıdır, hər şeyə, öz mövcudluğuna görə yalnız Rusiyaya borcludur. Bu gerçəyi Soçiyə yollanan Paşinyan görməzlikdən gələ bilməz.

Paşinyan isə məlumdur ki, Soçi səfəri öncəsi gah Qərbə, gah da Rusiyaya jestlər edib. Bu da onun kifayət qədər qəliz durumundan xəbər verir. Axı, o hakimiyyətə "demokratik hərəkat" dalğasında gəlib, daima özünü qərbpərəst kimi göstərməyə çalışıb. Ancaq müxalifətdə olub populist vədlər vermək ayrı, baş nazir məsuliyyəti - ayrı. Bizim əminliyə yaxın olan gümanımız budur ki, Putin Paşinyanı ilk təbrik edən olsa da, inqilabçı Paşinyandan məmnun deyil, ona şübhə ilə baxır. Rusiya ümumiyyətlə, postsovet məkanında inqilabları sevmir. Təsadüfi deyil ki, bir sıra iqtidaryönlü Rusiya KİV-ləri, tanınmış rusiyalı jurnalistlər bu arada erməniləri yenə naşükür, satqın adlandırdılar, hətta onları hədələdilər və aşağıladılar.

*****

"Hər şeyi inqilabla həll eləmək olmaz. Ermənistan Rusiyanın güclü təsiri altındadır. Rusiyanı isə Ermənistanda köhnə sistem tamamilə qane edir və Ermənistandakı son hadisələr onu dilxor edir". "Yeni Müsavat"ın məlumatına görə, bunu "Deutsche Welle" nəşrinə açıqlamasında tanınmış amerikalı politoloq, siyasi filosof və Stenford Universitetinin elmi əməkdaşı Frensis Fukuyama işğalçı ölkədəki post-inqilab dönəmini şərh edərkən deyib.

Politoloqa görə, bu səbəbdən Moskva əlindən gələni edəcək ki, baş verənlərdən asılı olmayaraq Ermənistanı Rusiyanın təsir zonasından çıxmağa qoymasın: "Necə ki, Gürcüstanda, Ukraynada bu baş verdi. Məni Ermənistanla qarşıdurma narahat edir".

"Ermənistandakı situasiyanı post-inqilab vəziyyəti adlandırmaq olar. Ən maraqlısı də elə bundan başlayır. Paşinyan baş nazir kreslosuna yiyələndi. Ancaq real hakimiyyəti əldə eləmək üçün ona və silahdaşlarına güclü çalışmaq lazım gələcək". "Yeni Müsavat" xəbər verir ki, bunu "Bkack Sea Press" agentliyinin baş redaktoru Qela Vasadze seyib.

Gürcü ekspertə görə, Paşinyan üçün real hakimiyyətə sahiblənmək asan olmayacaq. "Məsələ həm də onun buna necə nail olacağındadır. Erməni xalqı öz sözünü deyib və dəyişikliklər istəyir. Xalq baş nazirin əsas siyasi aktivi olaraq qalır. Bu, çox güclü resursdur, amma bilmək lazımdır ki, bu resurs zaman etibarilə çox məhduddur", - deyə o, xəbərdarlıq edib.

Siyasi şərhçinin fikrincə, təkcə N.Paşinyanın siyasi taleyi deyil, bütövlükdə Ermənistanda islahatların mümkünlüyü - hansı ki, kütlənin əsas tələbidir - seçkilərin nə dərəcədə tez keçiriləcəyi və radikal islahatlara nə dərəcədə tez başlanmasından asılı olacaq: "Daxili və xarici faktorları nəzərə alsaq, Paşinyanın vaxtı çox azdır".

Şübhəsiz ki, söhbət öncəliklə Rusiya amilindən gedir. "Rusiyanın Ermənistana təsir imkanları və oradakı resursları Kremlin Ermənistanla bağlı istənilən siyasətini yetərincə perspektivli edir. Sual sadəcə, budur ki, Kremlin son məqsədi nədir? Bax, bu məsələdə hadisələri çox diqqətlə izləmək lazımdır" - ekspert əlavə edib.

*****

"Ermənistanı qarşıda çox ciddi və ağır günlər gözləyir". Bu sözləri isə sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli deyib. Onun fikrincə, Paşinyan ilk vaxtlar Rusiyanı narazı salacaq addımlar atmayacaq və Moskva ilə münasibətləri qoruyub saxlamağa çalışacaq: "Ən əsası isə Gümrüdəki hərbi bazanın çıxarılması və Rusiya ilə bağlanmış hərbi müqavilənin denonsasiyası bir qədər sonra gündəmə gələcək. Hər halda Paşinyan Ermənistanda qanunların demokratik məzmun kəsb etməsini təmin etməyə çalışacaq. Bu fonda o, Qərbin güclü dəstəyini qazanmaq üçün Avropa Birliyi ilə assosiativ sazişi də gündəmə gətirə bilər. Bildiyiniz kimi, Qərb assosiativ üzv olan ölkələrə böyük həcmdə pul ayırır".

Q.Hüseynli Paşinyanın rus amili fonunda Qərblə ciddi bazarlığa girişəcəyini qeyd edib: "Ermənistan əhalisi uzağı 3-4 aya yeni baş nazirdən maddi rifahın yüksəldilməsini tələb edəcək. Ermənistan kasıb ölkədir və bütün sənaye müəssisələri borc qarşılığında Rusiyaya satılıb. Paşinyan erməni hiyləgərliyinə xas metodla Qərbdən çoxlu vəsait qopara bilər. Qərb isə böyük vəsaitlərin qarşılığında rus bazalarının Ermənistandan çıxarılmasını və Rusiya ilə imzalanmış uzunmüddətli hərbi müqavilələrin birtərəfli qaydada ləğvi şərtini qoya bilər. Qərbin istəkləri bununla da bitməyəcək, Paşinyandan mütləq NATO-nun Cənubi Qafqaza doğru genişlənməsi istiqamətində addımlar atması istəniləcək. Əks halda Ermənistana lazımı siyasi və maddi dəstəyi verməyəcək".

Paşinyanın üçüncü bir çıxış yolunun olmadığını deyən politoloq əks addımın Ermənistanda yeni rəngli inqilabla nəticələnə biləcəyini vurğulayıb. "Qərblə əlaqə, sadəcə, demokratiya ilə bitmir, həm də Ermənistanın bəzi Avropa strukturlarına inteqrasiyasını gündəmə gətirir. Yəni təkcə siyasi, deyil, hərbi inteqrasiya da lazım olur. Bu isə Ermənistanın çox mürəkkəb mərhələdən keçməsinə gətirib çıxaracaq. Bunun üçün təkcə Gürcüstanın keçdiyi yola nəzər salmaq kifayətdir. Ermənistanın bu yolu necə keçəcəyi, Rusiya ilə münasibətlərin taleyi və Qərblə əlaqələrin gələcək formatı çox ciddi məsələlərdir. Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq".

*****

"Paşinyanla Putinin mayın 14-də Soçidəki ilk görüşü Saakaşvili ilə Putinin ilk görüşü kimi çox nəzakətli keçəcək. Putin o zaman müəyyən konkret arzularını dilə gətirmişdi. O, Gürcüstan rəhbərliyində qəti şəkildə toxunulmayacaq 5-6 nəfərin adını çəkmişdi. Yəqin ki, bu dəfə o, Paşinyana da öz agenturasındakı belə fiqurların adını çəkəcək".

Bu da tanınmış politoloq Andrey Piontkovskinin rəyidir. Bu qəbildən təxminlərin həqiqət yükünü isə, yəqin ki, xeyli dərəcədə bugünkü Soçi görüşü müəyyən edəcək.

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018



# Kreml Qarabağda Afrin əməliyyatı kimi bir əməliyyata "yaşıl işıq" yandıra bilər

## Natiq Miri: "Paşinyanın komandası əvvəlkilərdən fərqlənməyəcək, çünki..."

**Ermənistanın yeni baş naziri Nikol Paşinyan komandasını formalaşdırmağa başlayıb. Fövqəladə hallar naziri vəzifəsini icra edən David Tonoyan ölkənin müdafiə naziri təyin edilib. Xarici işlər nazirini ölkənin prezidenti təyin etsə də, bu vəzifə sahibinin müəyyənləşməsində də baş nazir əsas rol oynayıb. İşğalçı dövlətin rəhbəri Armen Sərkisyan Ermənistanın BMT yanındakı nümayəndəsi Zoqrab Mnatsakyanı XİN rəhbəri təyin edib.**

Mnaçakyan 1991-ci ildən Xarici İşlər Nazirliyində işləyib. O, 2011-2014-cü illərdə xarici işlər nazirinin müavini olub. 2014-cü ildən Ermənistanın BMT yanında daimi nümayəndəsi işləyib.

Ekspertlər hər bir ölkə üçün əsas vacib qurumlar sayılan XİN və Müdafiə Nazirliyinə Ermənistandakı təyinatları birmənalı dəyərləndirirlər. Onlar hesab edirlər ki, bu təyinatlar düşmən ölkənin xarici və müdafiə siyasətində mühüm rol oynamayacaq, Ermənistan əsl xislətini bundan sonra da nümayiş etdirəcək. Paşinyanın öz komandasını formalaşdıra bilib-bilməyəcəyi barədə fikirlər isə müxtəlifdir. Əksəriyyət parlamentdə deputatların sayı baxımından böyük səs çoxluğu ilə hələ də əvvəlki Serj Sərkisyan rejiminə uduzan yeni baş nazirin ciddi çətinliklərlə üzləşəcəyini, komandasını formalaşdıra bilməyəcəyini düşünür.



Politoloq Natiq Miri hesab edir ki, Paşinyanın da dediyi kimi, Ermənistanın xarici siyasətində bundan sonra da ciddi dəyişikliklər olmayacaq: "Paşinyan anlayır ki, ciddi fundamental dəyişikliklər Ermənistan üçün çox böyük faciəyə gətirib çıxara bilər. Çünki xarici siyasətdə dəyişiklik dolayısı ilə Qərbə inteqrasiya xəttidir ki, bu da Rusiyanın orbitindən Ermənistanın çıxarılmasını hədəfləyir. Lakin Rusiyadan gələn mesajlar bunun əksini göstərir ki, yaxın zaman kəsiyində Ermənistan Kremlin orbitindən çıxa bilməyəcək. Açığı, Paşinyanın Rusiya rəhbəri Vladimir Putinlə görüş öncəsi verdiyi açıqlamalar da bir daha göstərir ki, Serj Sərkisyan rejiminin yürütdüyü xarici siyasətdən, xüsusilə, Rusiya ilə bağlı siyasətdən kənar siyasətin yürüdülməsi mümkün deyil. Çünki Paşinyan anlayır ki, rəsmi Moskvanın onun ölkəsinə bütün sahələrdə təsir imkanları çox böyükdür. Rusiya istənilən an Ermənistanda ictimai, siyasi vəziyyəti gərginləşdirə bilər. Hətta hərbi çevrilişlə iqtidarı dəyişdirmək imkanları da böyükdür. Ən nəhayət, Paşinyan yaxşı başa düşür ki, Suriyanın şimalındakı Afrin əməliyyatı kimi yeni bir əməliyyatın aparılması üçün Dağlıq Qarabağa "yaşıl işıq" yandırıla bilər. Bu baxımdan Ermənistanın bundan sonra xarici siyasətində heç bir dəyişiklik olmayacaq. Əksinə Paşinyan daha çox çalışacaq ki, Ermənistan üçün yeni iqtisadi yastıqlar müəyyən etsin. Bunun üçün də yeni mənbələrin, qaynaqların tapılmasına ehtiyac var. Ordunun gücləndirilməsi üçün çox böyük maliyyə vəsaiti lazımdır. Bu vəsait də işğalçı ölkədə yoxdur. Paşinyan bəzən boğazdan yuxarı danışanda sözün həqiqi mənasında nə Rusiya, nə də Qərb ekspertləri bunu ciddi qəbul etmirlər. Büdcəsi iflas həddində olan bir ölkənin baş naziri bu cür danışmamalıdır. Əgər danışırsa, onu ciddi bir siyasi şəxs olaraq dəyərləndirmirlər. Paşinyanın bu çıxışları ictimai rəyə hesablanmaqdan başqa bir şey deyil. Qısamüddətli eyforiya bir neçə aydan sonra sürətlə əriyəcək. Bu baxımdan Paşinyanı Azərbaycan cəmiyyəti gözündə böyütməli deyil. Çünki Rusiya və Qərbdə ona ciddi bir fiqur kimi baxmırlar".

Politoloq Paşinyanın komandasının əvvəlkilərdən fərqlənməyəcəyini düşünür: "Paşinyan Serj Sərkisyan kimi Rusiyanın əli ilə hərbi çevrilişlə hakimiyyətə gəlməyib. Bu, çox önəmli faktordur. Bu baxımdan Paşinyan Kreml qarşısında hesabatlı deyil. O, əvvəlki Sərkisyan rejimindən fərqli olaraq bir sıra demokratik islahatlar keçirməyə çalışacaq. Bu islahatlar, eyni zamanda, Ermənistan ordusuna da sirayət edəcək. Bilirsiniz ki, Paşinyanın xalqa verdiyi əsas iki vəddən biri korrupsiya ilə mübarizədir. O da Saakaşvili kimi qısa müddətdə Ermənistanda korrupsiyanı aradan qaldırmaq istəyir. Bu yöndə müəyyən çətinliklər olsa da, əgər siyasi iradə olarsa, xalqın ciddi dəstəyi ilə iqtisadiyyatdakı monopoliyanı, dövlətdə olan korrupsiyanı aradan qaldırmaq mümkün olacaq. Bu, erməni ordusuna da sirayət edə bilər ki, bu da Ermənistanın ordusunun ən spesifik xüsusiyyətlərdən biridir. Çünki bu ordu korrupsiyaya bulaşmış ölkələr sırasında ön yerlərdən birini tutur. Bunları edə bilsə, əvvəlki illərə nisbətdə Ermənistan ordusunda müəyyən nizam-intizam yarana bilər. Son təyinatlar göstərdi ki, Paşinyanın ciddi kadr potensialı yoxdur. Bu baxımdan Sərkisyanın komandasından da yeni hökumətdə yer alanlar olacaq. Nəticədə ictimai rəydə yeni demokratik hökumətin mövqeyi bir qədər azalacaq. Paşinyanın ən böyük problemi parlamentdə olacaq. Çünki burada əsas çoxluq əks düşərgəyə aiddir. Bu çoxluq nəticəsində Paşinyan əsas olan növbədənkənar parlament seçkilərini keçirməyə və konstitusiyaya uyğun olan Seçki Məcəlləsinə dəyişikliklər edə bilməyəcək. Ermənistanda bu iki məsələni həyata keçirmək üçün parlamentin yarısından çoxunun səsi lazımdır. Bu da 66 səs edir ki, onu da Paşinyanın indiki vəziyyətdə əldə etməsi mümkün deyil. İkinci mərhələdə 59 səslə baş nazir müəyyən olunub. Belə bir vəziyyətdə 70-ə yaxın səslə növbədənkənar parlament seçkilərinə getmək və Seçki Məcəlləsinə dəyişikliklər etmək mümkünsüzdür. Yeni hökumət parlamentdə yeni proqram çıxarsa - hansı ki çıxarmalıdır - düşünürəm ki, bu proqram çərçivəsində iki məsələni həyata keçirmək istisna olacaq. Müxalifətdə olan Respublikaçılar Partiyası hər iki məsələnin proqramdan çıxarılmasını tələb edəcəklər. Bunlar olmazsa, Paşinyanın yeni proqramı parlamentdə təsdiq olunmayacaq. Bu da yeni hökumət üçün böyük problemlər yaradacaq. Parlamentdə anlaşmaya ehtiyacın olduğu göz önündədir. Bu anlaşma da iki məsələnin istisnası ilə mümkündür. Yeni parlament seçkilərində çoxluğu qazanmadan Paşinyanın Ermənistanda ciddi dəyişikliklər edə biləcəyini düşünmürəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İnam yaradan nazir



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Azərbaycanda nazirə aid fotoların bu qədər geniş şəkildə müzakirə olunmasına nadir hallarda rast gəlinir. Təbii ki, söhbət təqdirlə müşayiət olunan müzakirələrdən gedir. Son günlər kənd təsərrüfatı naziri İnam Kərimovun bölgələrdə keçirdiyi görüşləri əks etdirən fotolar bəlkə də bir ilk oldu.**

Nazir Qax rayonundakı fermerlərlə görüşə sadə vətəndaş kimi, qeyri-rəsmi libasda getdi, onları dinlədi, görəcəyi işlərdən danışdı, hədəflərini açıqladı. Daha sonra Quba rayonunun Buduq kəndində fermer İldırım Məmmədovla görüşərkən qucağına aldığı quzu ilə də diqqəti növbəti dəfə özünə cəlb etdi. "Mən bu qədər ömür sürdüm, belə nazir görməmişdim... Quzunu qucağına alaraq "nazirdən quzu iyi gələr" dedi". Fermerin sözləridir.

Axı, bizlər naziri mühafizəçisiz, qalstuksuz təsəvvür etməmişik. Nazir uzağı kabinetdə, qəbul günlərində xüsusi seçilmiş vətəndaşları qəbul edib dinləyər, köməkçilər də qeydlər götürər. Yoxsa nazir də qucağına quzu götürər?! Qubalı fermeri də heyrətləndirən bu olmuşdu.

Əgər nazir sadə vətəndaşın ayağına gedirsə, onun problemləri ilə maraqlanırsa, bunu təqdir etmək lazımdır. Üstəlik, əgər azərbaycanlı fermer onunla görüşə gələn naziri məhz yuxarıdakı kimi qiymətləndirirsə, deməli kimsənin bu rəyə şübhə ilə yanaşmağa haqqı olmamalıdır. Kəndli, fermer, sahibkar nə istəyir? Onları dinləyən olsun, problemlərinin həllində dəstək verənlər tapılsın, məhsulunu bazara çıxara bilsin, kimsə mane olmasın, əlindən almasın. İnam Kərimov nazir təyinatının ilk ayındaca vətəndaşda bu inamı yaradıbsa, deməli kənd təsərrüfatı sektorunda inkişafın olacağına inamla yanaşmaq üçün əsas var.

Şübhə etmirik ki, nazir sadəcə, vətəndaşı məmnun edən görüşlər, yaxud bu görüşləri əks etdirən fotolarla kifayətlənməyəcək, kənd təsərrüfatında dönüş yaranmasına rəvac verən fəaliyyəti ilə sələflərinə nümunə olacaq. Cənab Kərimovun bununla kənd təsərrüfatına "yad adam" olmadığını da isbatlayacaq. Həm də ortada ASAN Xidmət nümunəsi var. İnam Kərimov bu quruma 6 il rəhbərlik etdi, ölkə vətəndaşları daim məmnun qaldı. ASAN Xidmət brendinin əldə olunmasında xidməti olan şəxsin növbəti hədəflərə çatacağına böyük inam var.

Ölkə prezidenti kifayət qədər etimad etdiyi şəxsi kənd təsərrüfatına rəhbər təyin etməklə qeyri-neft sektorunun inkişafına nə qədər böyük önəm verdiyini bir daha nümayiş etdirdi. Məncə, neftdən sonrakı Azərbaycanı çətinliklərdən sığortalamaqdan ötrü ASAN Xidmət-dən kadr gətirilib kənd təsərrüfatına. Həm də dünya təcrübəsinə istinad etməyə qadir olan kadr...

Bu, bir faktdır ki, ötən illərdə çox məhsullar kağız üzərində "əkilib-biçilib". Əgər un istehsalı ilə məşğul olan şirkətlər taxılı xaricdən alırsa və ölkədəki taxılın daha çox "toyuq-cücə dəni" olmağa yaradığını deyirsə, deməli, görüləsi ciddi işlər var. Bu gün qanunvericiliyə edilən dəyişikliklərə görə, torpaq sahələrini əkib-becərməyənlər onu geri qaytarmalıdır. Bu, olduqca həssas yanaşma tələb edir. Araşdırmaq lazımdır ki, kəndli torpağını niyə əkmir? Əgər onun əkməyə, yaxud biçməyə texnikası yoxdursa, öncə bu problem həll olunmalıdır.

Torpaq sahələrinin təyinatının dəyişdirilməsi bir sıra hallarda həm vətəndaşı narazı salır, həm də ümumi maraqlara ziyan vurur. Məsələn, son vaxtlar yerlərdəki məmurlar bəzi otlaq sahələrini "əkin üçün" geri alıblar ki, nəticədə fermerlər mal-heyvan, qoyun-quzunu kütləvi şəkildə ətliyə vermək məcburiyyətində qalıb. Nəticədə ət ya bahalaşır, ya da idxal olunur. Yəqin ki, yeni nazir bu məsələyə əncam çəkəcək. Əgər sahibkar əkinə yararlı olmayan yerdən ildə 4-5 dəfə yonca biçib gəlir əldə edirsə, onun marağı nəzərə alınmalıdır. Elə olmamalıdır ki, sonda məşhur filmdəki kimi "birdəfəlik deyin ki, torpağımızı əlimizdən alırsınız da" deyilsin. Min hektarlarla torpaq sahələri var ki, oliqarxların nəzarətindədir, məhz o torpaqlar geri alınmalı, xalqın və dövlətin ehtiyaclarına yönəldilməlidir.

Keçən həftə ASAN Xidmətə getmişdim - qaz üçün yeni smartkart almağa. 20 dəqiqə çəkmədi, xoş münasibətlə ayrıldım. Hətta çıxışda "xidmətimizdən şikayətiniz yoxdur ki" sualını da verdilər. Şad oldum ki, İnam Kərimovdan sonra bu quruma rəhbər təyin edilən Ülvi Mehdiyev də eyni uğurla işinə davam edir və vətəndaş məmnunluğuna nail olur. Uzun illər gürcülərə həsəd apardığı ki, gənclər rəhbər postlara təyin olunur. Bizdə də prosesə start verilib və uğurlu başlanğıc göz önündədir. Peşman olmarıq, inşallah!..

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018

# "Acgözlüyün sinoniminə çevrilmiş təbəqə neytrallaşdırılmalıdır"

## Əli Məsimli: "Orta və aşağı kadr heyətinin dəyişməsinə həssas yanaşılmasını zəruri hesab edirik"

**Prezident seçkilərindən sonra bir sıra mərkəzi icra hakimiyyəti orqanlarında baş verən rəhbər dəyişikliyi həmin qurumlarda kadrların əvəzlənməsinə gətirib çıxarıb. Demək olar ki, hər gün yeni nazir və sədrlərin kadr dəyişikliyi barədə yeni məlumatlar yayılır. Bir çoxları bu dəyişiklikləri zəruri olan kadr islahatı kimi qiymətləndirir.**

Onu da qeyd edək ki, bir sıra ölkələrdə yeni hakimiyyətlərə dövlət aparatında dəyişikliklərə limit tətbiq olunur. Xüsusilə orta və aşağı heyətdə dəyişikliklərə demək olar ki, imkan verilmir. Azərbaycanda hazırda baş verənləri kadr islahatı adlandırmaq olarmı? Yeni gələnlərin kadr dəyişiklikləri əvvəlki kimi, orta və aşağı heyəti də əhatə etməlidirmi? Bu və ya digər məsələlərlə bağlı suallarımıza sabiq baş nazir, millət vəkili Əli Məsimlidən cavab aldıq.

***- Əli bəy, prezident seçkilərindən sonra yeni təyinatlar olan dövlət qurumlarındakı kadr dəyişikliklərini necə qiymətləndirirsiz?***

- Azərbaycan öz inkişafının yeni mərhələsinə keçir. Yeni mərhələnin məntiqinə, müasir dövrün çağırışlarına dolğun şəkildə cavab verilməsi, xalqın güzəranının yaxşılaşdırılmasının və əhalinin bütün təbəqələrinin həyatının keyfiyyətini ölkəmizin yüksək potensial imkanları səviyyəsinə çatdırılmasının fundamental surətdə təmin edilməsi cəmiyyət həyatının bütün sahələrində demokratik islahatların həyata keçirilməsini obyektiv tələbata keçirib. Həmin demokratik və sistemli islahatlar kontekstində, hər şeydən əvvəl, dövlət idarəetmə və tənzimləmə sistemi əsaslı surətdə modernləşdirilməli, dünyada gedən proseslərə operativ reaksiya verən, operativ və optimal qərarlar qəbul edən və maksimum şəffaf fəaliyyət göstərən "yaxşı idarəetmə modeli"nə keçilməli, bu əsasda idarəetmənin çevikliyi artırılmalı və səmərəliliyi yüksəldilməlidir. Bu baxımdan, hazırkı islahatlar zamanı kadr islahatları ilə müşayiət olunan idarəçilik sisteminin əsaslı surətdə təkmilləşdirilməsi məsələləri mühüm yer tutur. Ona görə də prezident seçkilərindən sonra yeni təyinatlar olan dövlət qurumlarındakı kadr dəyişikliklərinin bir hissəsini, xüsusən də gənc kadrların irəli çəkilməsini və islahatlar kontekstində onlara şans verilməsini müsbət qiymətləndiririk.

***- Bunu kadr islahatı adlandırmaq olarmı?***

- Bu məsələyə münasibətdə bizim prinsipial mövqeyimiz belədir ki, kadr islahatları özündə məqsəd xarakteri daşımamalı və ona mütərəqqi sistem dəyişikliyinin mühüm tərkib hissəsi kimi baxılmalıdır. Bununla belə, prezident seçkilərindən sonra hökumətin formalaşdırılması ilə bağlı həyata keçirilən bir sıra kadr dəyişikliklərini kadr islahatı adlandırmaq olar. Məsələn, bu məsələyə münasibətdə fikir müxtəlifliyini təbii hesab etməklə yanaşı, Baş nazir postunun mühüm siyasi və strateji post olduğunu və bu posta çox gözlərin dikildiyini nəzərə almaqla yanaşsaq, hazırkı reallıqların məntiqindən doğan optimal variant kimi, Novruz Məmmədovun yeni Baş nazir təyin edilməsini, eləcə də təhsil naziri Ceyhun Bayramov, kənd təsərrüfatı naziri İnam Kərimov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, Diaspora iş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov və sair bu kimi yeni təyinatları kadr islahatları adlandırmaq olar. Bu işdə Milli Məclisin kadr potensialından geniş istifadə olunması və deputat həmkarlarımın irəli çəkilməsi bizim üçün xoşdur. Amma Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun Baş nazirin müavini təyin edilməsini kadr islahatı adlandırmaq olmaz. Bu, sadəcə, yerdəyişmədir. Son illərin nəticələrinə əsasən mülahizə yürütsək, Baş nazirin müavinləri içərisində real işi görünən iki nəfər var idisə, onun biri keçmiş deputat həmkarımız Əli Əhmədov, o biri isə "söz qabının" yumor yönünün güclü olması üzündən tez-tez ictimai qınağa tuş gəlməsini bir kənara qoysaq, öz sahəsini yaxşı bilən Abid Şərifov idi. Baş nazir dəyişdirilibsə və Nazirlər Kabinetini işlək orqana çevirmək fikri varsa, onda Əli Əhmədov qalmaq şərtilə, yaxın perspektivdə Baş nazirin müavinlərinin müasir tələblərə cavab verən professional kadrlar hesabına müasir formatda formalaşdırılmasını ümumi işin xeyrinə hesab edirik. Əks halda, ordakı durğunluq vəziyyəti bundan sonra da davam edəcək və yeni idarəetmə sistemində Nazirlər Kabinetinin yeri və rolu qeyri-müəyyən olaraq qalacaq.

***- Orta və aşağı kadr heyətinin dəyişməsinə ehtiyac varmı sizcə?***

- Biz orta və aşağı kadr heyətinin dəyişməsinə həssas yanaşılmasını zəruri hesab edirik və dəfələrlə bu məsələni qaldırmışıq. Çox vaxt yeni nazir, komitə sədri gələndə obyektiv meyarlardan çıxış etməklə işdən çıxarılması zəruri olan kadrlarla yanaşı, öz sahəsinin bilicisi olan kadrları da kənarlaşdırıb öz adamlarını gətirir. Məsələn, bundan əvvəlki kənd təsərrüfatı naziri həmin üsuldan daha ifrat dərəcədə istifadə edib, xeyli qiymətli kadrları kənarlaşdırdı. Yeni gətirilən kadrların bir hissəsi həqiqətən yaxşı kadrlar olsalar da, xeylisi, bir qayda olaraq, əvvəlkindən də zay olur. Beləliklə, yeni nazir, komitə sədri gələndə orta və aşağı kadr heyətinin dəyişməsində obyektiv meyarlar gözlənilmədiyindən, dövlətə ikiqat ziyan dəyir. Ona görə də yaxşı olar ki, bir sıra ölkələrdə olduğu kimi, nazirdən sonra katib, aparat rəhbəri, birinci müavin və sair formada bir texnokrat aparatı formalaşdırıb yerləşdirilsin və həmin nazirliyin əsas ağırlığı onların üzərində olsun ki, nazir 3-5 ildən sonra öz postundan getməli olanda həmin nazirliyin işlərinin sıfırdan qurulmasına ehtiyac qalmasın.



"Yaxşını pisdən ayırmağa imkan verən obyektiv meyarlar hazırlanıb tətbiq edilməlidir ki, qiymətli kadrlar daim irəli gedə bilsin"

***- Bir sıra ölkələrdə yeni hakimiyyətlərə məmur aparatında yenilənmə üçün limit müəyyənləşdirilir. Azərbaycanda belə bir limit varmı?***

- Azərbaycanda bu üsul tətbiq edilmir... Fikrimizcə, iqtisadi inkişafın hər bir mərhələsinin tələblərinə uyğun olaraq məmur aparatı müəyyən nisbətdə daim yenilənməli, öz işinin öhdəsindən gələn kadrlar təşviqləndirməklə öz yerlərində qalıb işləməli, öz işinin öhdəsindən gələ bilməyənlər isə yeniləri ilə əvəz olunmalıdır. İxtisarlar nəticəsində işdən azad edilən insanlar incidilməməli, qanunla müəyyən olunmuş kompensasiyalarını və sairi vaxtında almalıdır. Bir sıra ölkələrdə aşağı və orta ranqlı kadr bilir ki, öz işinin öhdəsindən gəlməklə keyfiyyətli fəaliyyət göstərsə, 3 ildən,5 ildən sonra karyerasında irəliyə doğru yeni pillə başlayacaq. Bizdə də ara-sıra belə meyarlardan istifadə olunur, amma elə hallar da olur ki, həmin qiymətli kadrın başının üzərindən kiminsə qohumu, adamı onun haqq-halalına tutmalı olduğu posta gətirildikdə həm dövlət itirir, həm də belə kadrlar ayrı-seçkiliyə dözməyib tez-gec çıxıb gedirlər. Çünki xeyli kadr var ki, rüşvət almaqla və ya belə əyri yollu bölgülərdə iştirak etməklə yox, öz professionallığı hesabına yaxşı qazanmağa üstünlük verir. Bunun üçün yaxşını pisdən ayırmağa imkan verən obyektiv meyarlar hazırlanıb tətbiq edilməlidir ki, qiymətli kadrlar daim irəli gedə bilsin. Onda ümumi işlərin irəli getmə sürəti də artacaq.

***- Sizcə, hazırkı kadr dəyişiklikləri hansı şərtlər daxilində effektiv nəticələnə bilər?***

- Kadr islahatları özündə məqsəd xarakteri daşımamalı, o, inkişafın müvafiq mərhələsinin məntiqindən doğan sistem dəyişikliyinin mühüm tərkib hissəsi olmalı, onun real nəticələri dövlət idarəetmə sisteminin keyfiyyətinin, səmərəliliyinin, rəqabət qabiliyyətinin, çevikliyinin artmasına, ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə və əhalinin güzəranının yaxşılaşdırılmasına verilən töhfəyə yönələn meyarlarla ölçülməlidir. Ona görə də Azərbaycanda uzunmüddətli dayanıqlı inkişafı təmin etməkdən ötrü, hər şeydən əvvəl, idarəetmənin çevikliyinin və səmərəliliyinin artırılmasının əsas şərtlərindən biri kimi, kadr islahatları ilə müşayiət olunmaqla, idarəetmənin təşkilatı strukturunun təkmilləşdirilməsinə yönəlik islahatlar həyata keçirilməlidir. Bu islahatların iqtisadi azadlıqların və şəffaflığın artırılmasına geniş meydan verən və cəmiyyət həyatının bütün sahələrində korrupsiyaya, inhisarçılığa, bürokratiyaya, məmur özbaşınalıqlarına son qoymağa yönəlmiş radikal islahatlarla əlaqəli şəkildə həyata keçirilməsini zəruri hesab edirik. Bu sahədə uğur qazanan bütün ölkələr məsələyə məhz bu cür kompleks yanaşmaqla yüksək nəticələr əldə edə biliblər. Hər şeydən əvvəl, ədalətsizliklər aradan qaldırılmalı, hüququn aliliyi hamıya tətbiq edilməli, qanundan yuxarıda duran təbəqə olmamalıdır. Xüsusən, acgözlük və yırtıcılığın sinoniminə çevrilmiş təbəqə vaxtında aşkar edilib neytrallaşdırılmalı, kənarlaşdırılmalı və layiqli cəzasına çatmalıdır. Azərbaycanda neft amilinin prioritet təşkil etdiyi inkişaf modelindən insan amilinin prioritet təşkil etdiyi İNNOVASİYALI İNKİŞAF MODELİNƏ keçid sürətləndirilməli, kadr sahəsində yaşlı, orta yaşlı və gənc kadrların birgə fəaliyyətinin effektiv kombinasiyasına nail olunmalıdır. Öz işini əla bilən qocaman və orta yaşlı kadrlarla yanaşı, texnokratların, yeni heç bir işə yaramayan qohum-əqrəba uşaqları yox, məhz istedadlı gənclərin rolunun artırılması və onların innovativ generatora çevrilməsinin işlək mexanizminin hazırlanıb tətbiq edilməsi lazımdır. Bunun magistral yolu cəmiyyət həyatının bütün sahələrində iqtisadi və sair azadlıqlara, mütərəqqi sistem dəyişikliklərinə, şəffaflığa, stimul və məsuliyyətin artırılmasına, hesabatlılığa yol açan demokratik, kompleks və davamlı islahatlardan keçir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ ətrafında təhlükəli durum - diplomatik həmlə gecikse, silahlar işə düşəcək...

## Ermənistanda hakimiyyət dəyişikliyi Dağlıq Qarabağ ətrafında situasiya dəyişikliyini də qaçılmaz edir; **ukraynalı politoloq:** "Qarabağ məsələsi Paşinyan üçün "qırılmayan qoz" olacaq..."

**Ermənistanın yeni və populist baş naziri Nikol Paşinyan küçə etirazları dalğasında ölkənin 1-ci şəxsi postunu tutar-tutmaz, xeyli "çırpı" yığdı. O sırada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə sərsəm bəyanat verdi və Azərbaycana, qardaş Türkiyəyə qarşı reallaşması heç vaxt mümkün olmayan şərtlər irəli sürdü.**




Əlbəttə ki, müxalifətdə ikən maksimalist mövqe sərgiləmək, populist açıqlamalar vermək ayrı şeydir, artıq ölkənin sükanı arxasında durub yekə-yekə danışmaq - tam ayrı. Birinci halda səndən heç kim reallaşmayan vədlərə görə hesabat istəməz, baş nazir kimi verdiyin vədlərin fiaskosuna görə isə real bədəl ödəmək lazım gələcək. İnqilabların əsas xüsusiyyəti də odur ki, qalib xalq hakimiyyətə gətirdiyi şəxsdən çox qısa zamanda onun güzəranını yaxşılaşdırmağı, başqa sosial-iqtisadi problemlərin sürətli həllini umur.

Konkret halda söhbət həm də Ermənistanı ağır blokada rejiminə tuş edən, iqtisadi-siyasi böhrana soxan və əhalisini xaricə kütləvi köçə vadar edən Qarabağ konfliktinin nizamlanmasından gedir. Paşinyan bu işlərin öhdəsindən gələ biləcəkmi, yoxsa o da sələfləri kimi öz xalqını bir müddət aldatmaq yolu tutacaq? Ekspertlərin bu yöndə proqnozları diqqət çəkir.

*****

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli hesab edir ki, avantürist təbiətli Nikol Paşinyan onsuz da Dağlıq Qarabağda və Ermənistanda müxtəlif avantüralara gedəcək (Axar.az): "Paşinyan indi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyası üzərində "işləyir". Bunu da o, Qarabağda bəyan etdi. Onun Dağlıq Qarabağda və Ermənistanda avantürizmləri isə bir gün onun özü üçün ciddi problemlər yarada və hakimiyyətinin ömrünün qısalması ilə nəticələnə bilər. Onsuz da Paşinyanı çətin günlər gözləyir. Məsələn, Rusiyanın Ermənistana yardımı kəsiləcək. ABŞ və Avropadakı erməni lobbisindən isə İrəvana, sadəcə, maddi dəstək gələcək. Həmçinin, Rusiyadan Ermənistana silah göndərilməsi də dayandırılacaq. Bu fonda ola bilsin ki, Rusiyadan Azərbaycana yeni silah növləri göndərilsin və Azərbaycanın atəş gücü daha da artırılsın. Nəticə etibarilə danışıqlar prosesi ilə bağlı o qədər qayğı göstərilməyəcək və tərəflər arasında müharibə şəraitinin yaranması an məsələsi olacaq".

Politoloqa görə, Rusiya bundan sonra Paşinyan rejiminin çökməsi üçün əlindən gələni edəcək. "Bu prosesdə Moskvanın adamı, separatçı rejimin başçısı Bako Saakyan birbaşa Kremlin göstərişlərini yerinə yetirəcək. Bir sözlə, Paşinyanı qarşıda çox ciddi sınaqlar gözləyir".

*****

Rusiyalı politoloq Andrey Yepifantsevə görə isə, çox çəkməyəcək ki, Paşinyan xalqın kumirindən uğursuz liderə çevriləcək. "Ermənistanın "siyasi prinsiplərindən" (Qarabağ və qondarma erməni soyqırımı - red.) imtina etmədən, blokadada və nəqliyyat marşrutlarından kənarda qalmaqla iqtisadiyyatı qaldırıb, vətəndaşların yoxsulluq səviyyəsini necə aşağı salmaq olar?", - deyə politoloq qeyd edib.

Onun sözlərinə görə, hələlik, ermənilər hesab edirlər ki, siyasi prinsiplərdən imtina etməyəcəklər: "O zaman belə çıxır ki, hakimiyyətə ya sehrbaz gəlməli və nəzəri olaraq çarəsiz situasiyadan konfet düzəltməyi bacarmalı, ya da onların xərclərini başqaları ödəməlidir. Bunlar isə ya Rusiya, Avrasiya İttifaqı, ya Qərb, yaxud Rusiya-Qərb (birgə) və ya diaspor olmalıdır. Yeni kim edirsə etsin, amma qürurla öz prinsiplərinə sadiq qalsınlar. Bugünkü ana qədər belə cəhdlər Ermənistan üçün uğurlu olmayıb, amma çox aktiv şəkildə davam edir".

Ekspertin qənaətincə, Nikol Paşinyanın iqtisadi proqramı zəif və populistdir. "O, mikroskopik erməni bazarını monopoliyadan qurtarmaqdan, kölgə iqtisadiyyatı ilə mübarizədən və s.-dən danışır. Ermənistanın saxlanılmasına qaynaq kimi isə o, yenə strateji tərəfdaşlarını görür. Aktiv şəkildə varli diasporu ölkəyə cəlb etmək Qərbə doğru getmək deməkdir. Bu isə Rusiyadan gələn mənbələrin qapadılması və həm də Ermənistanın sonu deməkdir. Paşinyan iqtisadiyyata yeni heç nə gətirmir. O, Ermənistanın siyasi tələblərindən də imtina etmir, nəticədə Ermənistanı iqtisadi kollapsa aparır. Digər tərəfdən, Paşinyan başqa ölkələrdən pul gətirib, vətəndaşları yemləyəcəyini deyir, lakin hələ də bəlli deyil ki, onlar niyə Ermənistana bu pulları verməlidirlər. Paşinyanın proqramı Ermənistanın blokadadan və təcriddən çıxarmayan, indiki siyasi mövqeyini qoruyub saxlayan digər proqramlar kimi uğursuzluğa məhkumdur. Məncə, bir il ərzində biz Paşinyanın iqtisadiyyat və rifah məsələsində heç nə edə bilməyəcəyini görəcəyik. Demək ki, ictimaiyyətdə neqativ əhval-ruhiyyə güclənəcək və yeni kumir axtarılacaq", - deyə o əlavə edib.

*****

Öz növbəsində ukraynalı ekspert İqor Semivolos hesab edir ki, Dağlıq Qarabağ konflikti Ermənistanın yeni baş naziri üçün "qırılmayan qoz" olacaq. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, rusdilli Vesi.az sayına müsahibəsində deyib.

"Onun mayın 9-da Qarabağa səfəri və bəyan eləməsi ki, Azərbaycan "Dağlıq Qarabağ xalqı"nın öz müqəddəratını tanımalıdır, fikrimcə, daxili auditoriyaya hesablanmış ritorikadan savayı bir şey deyil", - politoloq vurğulayıb. Onun sözlərinə görə, Nikol Paşinyan hələ Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq məramı nəzərə alınmaqla Dağlıq Qarabağ ixtilafının həlli üzrə realist mövqe ortaya qoymalıdır. "Bu mövqenin nədən və hansı baza prinsiplərindən ibarət olacağı, habelə kompromislərin mümkün sərhədlərini biz Paşinyanın komandasına kimlərin daxil olmasından biləcəyik", - deyə o əlavə edib.

Ancaq artıq bir şeyi əminliklə söyləmək olar ki, Ermənistanda küçə etirazların təsiri altında reallaşan baş nazir dəyişikliyindən və ardınca Paşinyanın diplomatiya qapılarını bağlayan məlum açıqlamalrından sonra Qarabağ məsələsi ətrafında təhlükəli bir dönəm yeişməkdədir. Bu üzdən əgər tezliklə Qarabağ məsələsində diplomatik həmlə baş verməsə, heç şübhəsiz, sülhün alternativi olan müharibə bütün ciddiliyi ilə gündəmə gələcək...



# "Qarabağ və 7 rayon Azərbaycana qaytarılmalıdır" - rusiyalı deputat

**"7 rayonun və Qarabağın özünün qansız və qeyd-şərtsiz Azərbaycana qaytarılması istiqamətində bütün səylər göstərilməlidir". Bunu Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, rusiyali deputat Dmitri Savelyev deyib (Xəzər TV). Rusiyalı deputat Ermənistanın yeni baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ probleminin nizamlanmasına dair danışıqlarda qondarma rejimin tamhüquqlu tərəf kimi iştirakı barədə dediklərinə də ironiya ilə yanaşıb. O, "Qarabağ hansısa subyektdirmi" sualını ünvanlamaqla kifayətlənib.**

Deputatın fikrincə, bu məsələ ilə bağlı Azərbaycan və Ermənistan rəhbərləri oturub danışmalıdır və münaqişə sülh yolu ilə həll olunmalıdır. D.Savelyev münaqişə ilə bağlı Azərbaycanın mövqeyinə gəlincə, güclənməyi, güclənməyi və bir daha güclənməyi məsləhət görüb. O qeyd edib ki, siyasi cəhətdən güclənmək, öz hərbi gücünü artırmaq mənasında mükəmməlliyə heç bir məhdudiyyət yoxdur.

Deputat bildirib ki, Rusiya bu gün Cənubi Qafqazda, o cümlədən Ermənistanda baş verən hadisələri diqqətlə izləyir və oradakı proseslərdən narahatdır. Onun sözlərinə görə, Rusiya gözləyir ki, Ermənistanın yeni rəhbərliyi Rusiya tərəfinin onların ölkəsi üçün nələr etdiyini və edəcəyini unutmasın.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018



# ABŞ səfirliyi Qüdsə köçürülür - müsəlman Şərqi üçün kritik gün

## Ekspertlər region üçün yeni təhlükələrdən danışdılar

**Ötən ilin dekabrında ABŞ prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasından sonra Amerikanın Təl-Əvivdəki səfirliyi bu gün Qüdsə köçürüləcək. İlkin mərhələdə ABŞ-ın Qüdsdəki səfirliyinin 50 əməkdaşı olacaq. Açılışda 800 qonağın iştirakı gözlənilir. Ekspertlər isə bu hadisədən sonra regionda gərginliyin yeni mərhələyə qədəm qoyacağını qeyd edirlər.**

Politoloq Əhəd Məmmədli Amerikanın İsraildən bərk yapışıb onun istəklərini yerinə yetirdiyini bildirdi: "Tramp Amerika prezidenti seçildiyinə görə yəhudi lobbisinə minnətdarlığını bildirir, borcunu qaytarır. Bunun nəticəsində yenə gərginlik və fələstinlilərin növbəti qətliamı olacaq. Amerika getdikcə dünyada təklənir. BMT- də Fələstinlə bağlı son səsvermə də bunu göstərdi. İsrail qurulandan bu ölkənin özbaşınalığı region üçün baha başa gəldi. Amma sonda bu özbaşınalıq İsrailin özünə daha çox baha başa gələcək. Müsəlman dünyası Osmanlı xilafəti süquta uğrayandan sonra prosesləri uduzmaqda, məğlubiyyətlər ard-arda gəlməkdədir. Qüds məsələsində müsəlman ölkələri birlikdə təpki göstərməlidir. Bu təpkini də yenə Türkiyə təşkil etməlidir. Əks halda, reaksiyalar effekt verməyəcək. Satılmış ərəb monarxlarından bu təpkini təşkil etməyi gözləməyək. Eyni söz Misir prezidenti, xain Sisiyə də aiddir. Hazırda Türkiyənin başı daxildəki proseslərə qarışıb. Qardaş ölkə növbədənkənar seçkilərə hazırlaşır. Bütün bunlara rəğmən, Türkiyə bu proseslərdə də məzlum Fələstin xalqının yanında olacağına şübhəm yoxdur. Səfirliyin açılması aydın məsələdir ki, Fələstinlə İsrail arasında onsuz da gərgin olan münasibətləri daha da gərginləşdirəcək. Müsəlman ölkələri pərən-pərəndir. Ərəb dünyası müharibələr, münaqişələr içində sızıldayır. Səudiyyə Ərəbistanı, BƏƏ, Misir iqtidarları amerikalılar tərəfindən yönəldilir, İran Suriyada vurulur, Qətər qonşuları tərəfindən təklənib. Türkiyə meydanda tək qalıb, Pakistan uzaqdadır. Amerika bu fürsətdən istifadə edib Qüdsdə səfirliyini qurur. ABŞ və İsrail acısından Qüdsdə səfirlik qurmaq çox uğurlu vaxtdır".

Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev ABŞ səfirliyinin Qüdsə belə tələsik köçürülməsini heç kəsin gözləmədiyini söylədi: "Tramp belə bu köçürmənin müzakirələrdən sonra 2018-ci ilin sonlarına, ya da 2019-cu ilin əvvəllərinə qədər baş verə biləcəyini demişdi. O zaman hamı bunu verilən qərarın nəticələrinin təhlükəli ola bilməsi ehtimalları ilə əlaqəndirirdi və köçürmənin vaxtını uzatmaqla ola biləcək riskləri araşdırıb önləmək məqsədi olduğunu deyirdilər. Amma belə tezliklə səfirliyin Qüdsə köcürülməsi regionla bağlı hansısa böyük planların olmasından xəbər verir. Hazırda Qüdsdə heç bir dövlətin səfirliyi yoxdur. Əvvəllər Kosta-Rika və Salvador Qüdsdə səfirliklərini açmışdılar. Amma ərəb dövlətlərinin davamlı təkidləri və tələbləri qarşısında 1986-ci ildə bağladılar. Bu günə kimi orada yalnız ABŞ-n baş konsulluğu fəaliyyət göstərir ki, onun da tarixi Fələstin -İsrail konfliktlərindən öncələrə gedir. ABŞ çox yaxşı bilir ki, bu addımın nəticəsi olaraq regionda gərginlik artacaq. Bütün ərəb dövlətləri və müsəlman dünyası buna birgə təpki verməsələr də, onların içindən bir çox dövlətlər müxtəlif vasitələrlə narazılığını bildirəcəklər. Ən təhlükəlisi isə Fələstin muxtariyyətində, İsrailin öz içində buna fanatik dərəcədə qarşı çıxan insanların fəaliyyətinin aktivləşəcəyidir. Məlumdur ki, bu addıma qarşı ilk gündən kəskin reaksiya verən İrandır. Amma hazırda İran elə vəziyyətdədir ki, tam gücü ilə bu qərarın əleyhinə gedə bilmir. Türkiyədə Ərdoğan hakimiyyəti isə Fələstin məsələsinə həmişə çox həssas yanaşıb. Onun da reaksiyasını tezliklə görəcəyik. Digər tərəfdən, ABŞ-ın İranla bağlı nüvə sazişinə yenidən baxması qərarı ilə paralel səfirliyin Qüdsə köçürülməsini də təsadüfü saymıram. Hadisələri izlədikcə görürük ki, regionda ABŞ-ın atdığı addımlara qarşı gedəcək dövlətlərin sayı son illərdə maksimal dərəcədə aşağı düşüb. Rusiya isə hələ ki susur, amma ondan da sürprizlər gözləmək olar. Hesab edirəm ABŞ tərəfi də bunları bilməmiş deyil. İsrail və Fələstin arasında sülhün yaranması, problemin çözülməsi perspektivlərinə kökündən zərbə vuran, iki xalq arasında düşmənçiliyi daha da gücləndirəcək bir addıma gedilirsə, bunlar göz önünə alınırsa, deməl,i burada daha böyük strateji maraqlar və planlar var. Belə görürəm ki Fələstinlə sülhün yaradılmasında, problemin çözülməsində İsrail də maraqlı deyil".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# ABŞ İran üzərindən Türkiyəni hədəf alıb? - ilginc iddia

## **Elxan Şahinoğlu:** "Vaşinqton Türkiyə hakimiyyətindən narazıdır, imkanı olsa, istənilən yolla onu dəyişməyə çalışar..."

**Amerikanın İranla nüvə sazişini ləğv etməsindən sonra hər iki ölkə arasındakı gərginlik hər keçən gün artır. Digər dövlətlərin bu prosesə cəlb edilməsi üçün cəhdlərin olduğu göz önündədir.**

"İrana hücumun əsas hədəflərindən biri isə Türkiyədir". Publika.az xəbər verir ki, bu iddia ilə Rusiya Strateji Araşdırmalar İnstitutu rəhbərinin müavini, Yaxın Şərq üzrə mütəxəssis Yelena Suponina KAFKASSAM-a açıqlamasında deyib.

Rusiyalı ekspert hesab edir ki, Moskva da hərəkətə keçməlidir: "Bölgədə tərəfdaşlarımızla münasibətlərimizi daha da yaxşılaşdırmalıyıq. Rusiya-Türkiyə-İran formatı yaxşı işləyir. ABŞ bölgədə hər kəsin bir-birinə qarşı çıxmasını istəyir. Türkiyə İrana qarşı son hücumlardan narahatdır. Çünki Tehrana qarşı hücum Ankara üçün "yaxşı hədiyyə" vəd etmir".

Y. Suponina qeyd edib ki, ABŞ qərbyönümlü İranın qurulmasını istəyir. "Məşhur amerikalı politoloq Zbiqniv Bjezinski də "Böyük şahmat taxtası" kitabında İranın qərbyönümlü ölkəyə çevrilməsinin vacibliyinə toxunurdu və qeyd edirdi ki, bölgədə getdikcə güclənən Türkiyəyə qarşı balans yaratmaq lazımdır. Bu baxımdan, hesab edirəm ki, ABŞ-ın İrana hücumunun əsas səbəblərindən biri Türkiyədir. Gələcəkdə Türkiyə də hədəfdə olacaq", - deyə o bildirib.

Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu rusiyalı ekspertin dediklərinə bu cür şərh verdi: "Öncəliklə onu deyim ki, ABŞ və İsrailin İranı hədəf almasında iki məqsədi var. Birinci məqsəd məlumdur. Vaşinqton və Təl-Əviv istəyirlər ki, İran nüvə silahı əldə etməsin və bu ölkə nüvə çalışmalarından əl çəksin. İsrailin daha bir məqsədi odur ki, İran bölgədəki silahlı qruplara dəstəkdən əl çəksin. Çünki İranın "Hizbullah"a verdiyi dəstək İsrailə təhlükə yaradır. İsrailin baş naziri Benyamin Netanyahunun İranın nüvə çalışmalarına dair kəşfiyyat məlumatlarını açıqlamasına Qərbin özündə də inanan az oldu. Çünki İsrail illərdir İranın nüvə çalışmaları apardığını iddia edir. ABŞ-ın keçmiş prezidenti Barak Obama Avropadakı tərəfdaşları, o cümlədən Rusiya və Çinlə birgə İranla nüvə anlaşması imzalayanda İsrail bunu tənqid etdi. İsrail rəsmiləri dedilər ki, Tehran beynəlxalq aləmi aldadır və yenə də aldadacaq. Əslində İsrail həm də ondan ehtiyat edirdi ki, İran sanksiyalardan qurtulduğu və əlavə gəlir qazanacağı halda bundan İsrailə qarşı istifadə edəcək və anti-İsrail qüvvələrə silah və maliyyə dəstəyini artıracaq. Bu gün İsrail və İran Suriyada faktiki savaşırlar. Bu iki ölkə tarixində ilk dəfə baş verir və heç kim istisna edə bilməz ki, sabah bu savaş başqa məkanlarda davam etməyəcək. ABŞ və İsrailin Tehranı hədəf almasının ikinci məqsədi də var və bu haqda az danışılır. Vaşinqton və Təl-Əviv İrandakı rejimi sıxmaq hesabına bu ölkədə hakimiyyət dəyişikliyinə ümid edir. Çünki İrana qarşı sanksiyalar sərtləşsə, bu qonşu ölkədə iqtisadi və sosial duruma mənfi təsir edə bilər. Bundan sonra isə İranda müəyyən təlatümlər yaşana bilər. Məsələn, ABŞ-ın nüvə sazişindən çıxması İrandakı mühafizəkar dairələri prezident Həsən Ruhani və onun islahatçı tərəfdarlarına qarşı təzyiqi artıracaq. Çünki onlar deyəcəklər ki, amerikalılar Həsən Ruhanini və islahatçıları aldatdılar, Vaşinqtona inanmaq lazım deyildi və s. Bəlkə də Vaşinqtona və Təl-Əvivə elə bu cür gedişat lazımdır. İranda iqtisadi problemlər onsuz da kifayət qədərdir, vəziyyətin daha da gərginləşəcəyi istisna deyil. Məsələn, bu günlərdə skaypla bir neçə iranlı ekspertlə fikir mübadiləsi aparmışam, onlar ölkədə son günlərdə inflyasiyanın artdığını deyirlər. Vaşinqton İranı içəridən dağıtmaqla problemini həll edəcəyini düşünürsə, bu da yanlış yoldur. Vaşinqton vaxtilə Səddam Hüseyndən qurtulmaqla da İraqla bağlı problemin həll olunacağını düşünürdü. Səddam Hüseyni asdılar, ancaq İraq və bölgə bundan daha təhlükəsiz olmadı, tam əksinə, bu ölkə viran qoyuldu, təriqət savaşları baş alıb getdi və indi də müxtəlif təriqətlər arasındakı münasibətlərdə inamsızlıq var, qətlə yetirilənlərin sayı yüz minləri keçdi, terrorçu təşkilatlar peyda oldu. Eyni sözləri Liviyaya da aid etmək olar. İran daha betər ola bilər. İran asanlıqla təslim olmayacaq. İrandakı rejim bütün Avrasiya bölgəsini lərzəyə gətirər, ancaq Səddam Hüseyn və ya Müəmmar Qəzzafi kimi asanlıqla təslim olmaz".



Politoloq Türkiyənin hədəf alınacağı təqdirdə bunun dünya üçün ciddi təhlükələrə yol açacağını düşünür: "Vaşinqton İrandan sonra Türkiyəni hədəf götürərsə, bu, dünya sabitliyi üçün sonun başlanğıcı olar. Vaşinqton Türkiyənin indiki hakimiyyətindən narazıdır, əlində imkan olsa, istənilən yolla bu hakimiyyəti dəyişməyə çalışar. Ancaq hələ ki, alınmır. Çünki Türkiyədə siyasi qüvvələr, cəmiyyətin mütləq əksəriyyəti və ordu Amerikanın kuklası olmaq istəmir. Doğrudur, Fətullah Gülən vasitəsilə illər boyu Türkiyədə güclü qüvvə yetirşdirməyə çalışdılar, ancaq 2016-cı ilin iyul ayında planlar reallaşmadı. Türkiyədə 3 dəfə hərbçi çevriliş olub və ordu generalları əsasən həmrəylik nümayiş etdiriblər. Türkiyə tarixində ilk dəfə generalların özləri belə keçmiş həmkarlarına müqavimət göstərdilər və gülənçi çevrilişən imkan vermədilər. Yəni Amerikadakı bəzi dairələrin Türkiyə ordusu vasitəsilə qardaş ölkəni sözəbaxan etməsi planı da alınmadı. Bu baş verənlər bizim də gözümüzü açmalıdır. Bəli, hazırda Azərbaycan-ABŞ münasibətlərində ciddi problem yoxdur, Vaşinqtonla Bakı arasında əməkdaşlıq davam edir, Ağ Ev ölkəmizin həyata keçirdiyi regional layihələri dəstəkləyir. Ancaq Amerikaya inanmaq olmaz. Yaxın tarix göstərir ki, Amerika öz məqsədinə nail olmaq üçün birbaşa və ya başqalarının əli ilə ölkələri viran qoyur, xalqları iztiraba sürükləyir. Okeanın o tayından ölümləri və dağıntıları seyr etmək ona problem yaratmır. Ancaq bu, heç də o demək deyil ki, bunun qarşılığında biz Rusiyaya daha çox yaxın olmalıyıq. Bu, Amerika ilə daha çox yaxınlıqdan da betər olar bizə. Türkiyə ilə strateji müttəfiqlik əsasında milli və təhlükəsizlik maraqlarımızı gücləndirməliyik".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018

# Şirvan Milli Parkında bir gün: vəhşi təbiətin fərqli çaları

## Yırtıcı heyvanların da olduğu parkda 11 turist marşrutu fəaliyyət göstərir

**Mayın 12-də Ekologiya və Təbii Sərvətlər Nazirliyi Şirvan Milli Parkına mediatur təşkil edib. Təşkil olunan mediaturda 20-yə yaxın jurnalist iştirak edib.**




Musavat.com-un əməkdaşının da qatıldığı turun əsas məqsədi ictimaiyyəti Şirvan Milli Parkı ilə bağlı geniş məlumatlandırmaq və ekoturizmin inkişafı ilə bağlı orada görülən işlər haqqında jurnalistlərə məlumat vermək olub.

Şirvan Milli Parkına daxil olan zaman ilk olaraq gözümüz girişdəki lövhəyə sataşdı. Burada içəridə nələrdən istifadəyə məhdudiyyətin qoyulduğu haqqında geniş məlumat vardı. Məlumat lövhəsinin yanında isə park ərazisinə 11 marşrutun adı və məsafəsi qeyd olunub.

Öyrəndik ki, ölkə başçısının 2003-cü il 5 iyul tarixli sərəncamı ilə Bakı şəhərinin Qaradağ, Salyan və Neftçala rayonlarının inzibati ərazilərinin 54373,5 hektarında Şirvan Milli Parkı yaradılıb. Kür-Araz ovalığının cənub-şərqi Şirvan düzənliyində ümumi ərazisi 65580 hektar olan xüsusi mühafizə edilən təbiət ərazisinin 54373,5 hektarında Şirvan Milli Parkı, 6232 hektarında Şirvan Dövlət Təbiət Qoruğu və 4930 hektarında isə Bəndovan Dövlət Təbiət Yasaqlığı yerləşir.

Bildirildi ki, Milli Parkın yaradılmasında əsas məqsəd yarımsəhra landşaftının başlıca komponentlərini, "Qırmızı kitabı"a düşmüş ceyranları və o ərazi üçün səciyyəvi olan fauna növlərini qoruyub saxlamaq, ekoloji monitorinqi həyata keçirmək, əhalini ekoloji maarifləndirmək, turizm və istirahət üçün şərait yaratmaqdır.

Elə orada olan zaman bunu da öyrəndik ki, park ərazisinə turistlər olduqca maraq göstərirlər. Əsasən Almaniya, İngiltərə, Hollandiya kimi ölkələrdə turistlər gəlirlər. Park ərazisinə daxil olan zaman məlumat mərkəzi var ki, burada turistə bütün lazımı bilgilər verilir. İçəri daxil olmaq üçün böyüklər 2 manat ödəyirlər. Uşaqlar üçün isə park ərazisinə giriş pulsuzdur. Məlumat mərkəzində həmçinin uşaqların əylənməsi üçün pazllar, qazıntılar nəticəsində dəniz ətrafında tapılmış əşyaların qalıqları, heyvanların sümükləri saxlanılır. Burada həmçinin, monitor da var ki, turist yayımlanan filmdən əraziyə baxıb, hara getmək istədiyini seçir. Daha sonra isə istəyindən asılı olaraq ya bələdçi ilə, ya da bələdçisiz seçdiyi istiqamət üzrə hərəkət edir. Məlumat mərkəzində turistlərə həmçinin zibil atmaları üçün qab da verilir ki, onlar ətraf mühiti çirkləndirməsinlər.











Şirvan Milli Parkı ərazisində vəhşi təbiət özü özünü idarə edir. Yəni burada 7 mindən çox ceyran olduğu kimi, canavar, qaban, tülkü, çaqqal kimi vəhşi heyvanlar da az deyil.

Jurnalistlər məlumat mərkəzində ərazi haqqında informasiya aldıqdan sonra təyin edilən istiqamət üzrə hərəkət etdilər. 11 kilometrlik məsafəni qət edən zaman qarşımıza ceyranlar da çıxdı. Çətinliklə də olsa uzaq məsafədən, otların arasından onların fotolarını çəkə bildik. Bildirildi ki, hazırda ceyranların balalama dövrü olduğu üçün onlar ərazinin daxilinə doğru çəkiliblər. Bu ərəfədə ceyranlar səs-küydən, insan gəzdiyi yerlərdən uzaqda olur. Ancaq qeyd etdiyimiz kimi, bütün bunlara baxmayaraq qarşımıza bir neçə erkək və dişi ceyran çıxdı.

Jurnalistlər həmçinin park ərazisində yerləşən Qızılqaz gölünə də aparıldılar. Burada müxtəlif növ quşlara rast gəlinir. Eyni zamanda ərazidə olan yırtıcı heyvanlar, ceyranlar da məhz bu göl vasitəsilə suya olan ehtiyaclarını ödəyirlər.

Şirvan Milli Parkının rəhbəri Füzuli Məmmədovun sözlərinə görə, park ərazisində 4 növ suda-quruda yaşayan heyvanlara rast gəlinir. Bunlar Suriya sarımsaqiyli qurbağa, yaşıl quru qurbağası, Kiçik Asiya ağac qurbağası və göl qurbağasıdır:

"Suriya sarımsaqiyli qurbağa nadir və nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş növ olduğu üçün "Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Siyahısı"na və "Qırmızı Kitab"a daxil edilib, qanunla qorunur. Şirvan Milli Parkının heterofaunasını 17 növ sürünən heyvanlar təşkil edir. Bunlardan 3 növü tısbağa, 6 növü kərtənkələ və 8 növü ilanlardır. Tısbağalar: Aralıq dənizi və ya quru tısbağası, Xəzər tısbağası, bataqlıq və ya çay tısbağası. Kərtənkələlər: Xəzər gekkonu, koramal, cəld kərtənkələcik, rəngbərəng kərtənkələcik, zolaqlı kərtənkələ, zərif ilanbaş kərtənkələ. İlanlar: kor ilan, adi su ilanı, su ilanı, zeytuni təlxə, qızılı təlxə, xaltalı eyrenis, kələz ilan və cənubi Qafqaz gürzəsi.

Aralıq dənizi və ya quru tısbağası nadir və nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş növ olduğu üçün "Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Siyahısı"na və "Qırmızı Kitab"a daxil edilib qorunur. Parkda 230 növ qeydə alınıb. Bu zənginlik Milli Parkın quşların miqrasiya yolunda yerləşməsi və ərazisində quşların yaşayışı üçün biotopların müxtəlifliyi ilə əlaqədardır. Quşların miqrasiyası və qışlama dövründə göllərin və dənizin dayaz yerlərində əsasən yaşılbaş ördəklər, fitçi cürə, boz ördək, marek, bizquyruq, cırıldayan cürə, enliburun ördək, flaminqo, fısıldayan qu, qaşqaldaq, dərin su sahələrində isə qırmızıburun, qırmızıbaş, kəkilli və dəniz dalğıcları, güləyən ördək və digər ördək növləri toplantılar əmələ gətirirlər".

F. Məmmədov onu da qeyd etdi ki, ceyranların artımına nail olmaq üçün park ərazisində vəhşi heyvanların sayı tənzimlənməlidir.

Nazirliyin Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktor müavini Hikmət Əlizadə isə bildirdi ki, əsas məqsəd turistlər üçün şərait yaratmaqdır: "Milli Park ərazisində 11 turist marşrutu fəaliyyət göstərir ki, bu da müxtəlif istiqamətləri əhatə edir. Həm dəniz sahili, həm yarımsəhra ərazilərinə turistlər rahat şəkildə gedə bilərlər. Bu ərazidə yırtıcı heyvanlar da var. Xüsusilə miqrasiya dövründə burada dünyanın "Qırmızı kitabı"na düşən növləri də görə bilərik. Əsasən də burada ceyran çoxdur. Hazırda ərazidə 7 mindən çox ceyran var. Ərazidə xüsusi mühafizə rejiminin olması burada ceyranların artımına şərait yaradır. 2010-cı ildən bəri 171 baş ceyran buradan tutulub, onların tarixən məskunlaşdığı Azərbaycan ərazilərinə köçürülüb. Onların təbii artımı ilə bağlı müsbət xəbərlər alırıq ki, bu işi də davam etdirəcəyik. Bu park ərazisində isə hansısa heyvanın artırılmasına ehtiyac yoxdur. Təbiət özü hər şeyi tənzimləyir və balans yaranır. İnsan müdaxilə etməsə, daha yaxşı olar. Turistlər bura istənilən zaman gəlsələr, maraqlı anlar yaşayarlar. Ancaq təbii ki, Şirvan Milli Parkı yaz və payız aylarında daha gözəl olur".

Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova dedi ki, yeni başladıqları layihə "Təbiətimiz evimizdir" adlanır: "Mediatura Şirvan Milli Parkından başladıq və digər parklara səfərlərlə bu, davam edəcək. Məqsədimiz odur ki, ekoturizmin inkişafına çalışacaq. İstəyirik ki, insanlarda ətraf mühitə olan münasibəti dəyişək. Onlar görsünlər ki, Azərbaycanda necə gözəlliklər var və bununla yaxından tanış olsunlar. Təəssüf ki, park ərazisinə gələnlər daha çox xaricilərdir. Öz vətəndaşlarımız milli parklara o qədər də gəlmək istəmirlər. Gördük ki, Şirvan Milli Parkında ekoturizm üçün xeyli imkanlar yaradılıb, marşrutlar müəyyənləşib, bələdçilər fəaliyyət göstərirlər. Bura gələn turistlərin hamısına bələdçilər geniş məlumat verib, onları gəzdirirlər".

**Əli Rais,**
**"Yeni Müsavat".**
**Fotolar müəllifindir.**
**Musavat.com**

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018

# "Eurovision"un qalibi İsrail təmsilçisi oldu - Netanyahu qalmaqallı bəyanat verdi

## Azərbaycan niyə "uğur qazana bilmədi? Murad Arif: "Mahnımız, səhnəmiz mənasız idi..."



**Artıq bir "Eurovision" mahnı müsabiqəsi də geridə qaldı. Portuqaliyanın paytaxtı Lissabonda keçirilən, sayca 63-cü müsabiqənin budəfəki qalibi İsrail təmsilçisi oldu. Belə ki, Netta "TOY" mahnısı ilə 529 xal toplayaraq ölkəsini birinci yerə sahib etdi.**

Qeyd edək ki, bu, müsabiqəyə ilk dəfə 1973-cü ildə qoşulan İsrailin 4-cü qalibiyyətidir. Beləliklə, "Avroviziya-2019" İsraildə baş tutacaq. Yarışmadan dərhal sonra isə bu ölkənin baş naziri Binyamin Netanyahu qalmaqallı bəyanat verib. O, öz tvitter səhifəsində yazıb: "Netta, sən İsrailə böyük şöhrət gətirdin. Növbəti il - Qüdsdə!"

Onun bu açıqlaması müsəlman ölkələrində müzakirələrə səbəb olub. Ekspertlər də qeyd edir ki, Netahyahunun bu açıqlaması xüsusən də Fələstin və İsrail arasında gərginliyi artıra bilər.

Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev bununla bağlı "Yeni Müsavat"a danışdı: "Mənə elə gəlir ki, yaranacaq gərgin vəziyyətdə təhlükəsizlik baxımından minlərlə turisti, "Eurovision" iştirakçılarını Qüdsə dəvət etmək çox risklidir, hətta inanmıram ki, dövlətlərin əksəriyyəti bu səbəbdən oraya gəlməyə razılıq versin. Amma indiki vəziyyətdə belə bəyanatın verilməsi qarşıdurmaya, konfliktin güclənməsinə xidmət edən bir addımdır".

*****

Öz ölkəsini birinci edən Netta haqqında isə bildirək ki, o, 22 yanvar 1993-cü ildə İsrailin Hod-ha-Şaron şəhərində anadan olub. Netta uşaq yaşlarında ikən ailəsi ilə birlikdə Nigeriyaya köçüb və orada dörd il yaşadıqdan sonra İsrailə geri dönüb. İsrail Silahlı Qüvvələrində məcburi xidmətdən öncə Barzilay könüllü olaraq Nahalda xidmət göstərib və daha sonra İsrail Dəniz Qüvvələrində hərbi xidmətini başa vurub.

2017-ci ildə Netta Barziliya İsrailin IPBC telekanalının müsabiqə üçün təşkil etdiyi "HaKokhav HaBa -2018" adlı milli seçim turunda iştirak edib. Uzun sürən seçim turlarında Brazilay Rihanna, Kristina Agilera, Keşa və digər dünya ulduzlarının mahnılarını səsləndirib. Nəticədə yarışmada qalib gələrək, Netta Barzilay İsraili Portuqaliyanın paytaxtı Lissabonda keçirilən "Eurovision"da təmsil etmək hüququ qazanıb. Müsabiqə üçün uzun sürən hazırlıqlardan sonra Netta 8 may tarixində baş tutan müsabiqənin birinci yarımfinal mərhələsində 7-ci nömrə altında çıxış edib. Nəticədə ifaçı 283 xalla yarımfinalda birincilik əldə edərək, müsabiqənin finalına yüksəlib.

*****

Bəs Azərbaycan niyə müsabiqədə uğur qazana bilmədi?

Ölkəmiz bu müsabiqədə finala keçməməsi ilə yadda qalıb. Təmsilçimiz Aysel Məmmədova (Aisel) "X my heart" mahnısı ilə yarımfinalda 1-cı çıxış etməsinə baxmayaraq uğur qazana bilməyib. Əksəriyyət ifaçının istedadlı olduğunu qeyd edərək, bu məğlubiyyəti yalnız uğursuz mahnı seçimi ilə əlaqələndirir. Hansı ki, hələ müsabiqə başlamazdan əvvəl əksəriyyət mahnın ölkəmizə uğur gətirməyəcəyini bildirirdi. Hətta bukmeykeylər də Azərbaycanın bu mahnı ilə 10-luğa düşməyəcəyini proqnozlaşdırmışdı. Sonradan adı çəkilən mahnı sosial şəbəkələrdə tənqid olunduğu üçün kompozisiyasında dəyişiklik edilmişdi. Yəni mahnının giriş hissəsi daha da elektronikləşdirilmişdi.




Xatırladaq ki, "X my heart" mahnısı məşhur yunan bəstəkar-prodüser Dimitris Kontopulos və isveçli bəstəkar Sandra Byurmanın müştərək əsəridir. Hər iki müəllif müxtəlif illərdə "Eurovision" mahnı müsabiqəsində qalib olub. 2016-cı ildə D.Kontopulos və 2011-ci ildə S.Byurman qalib seçilib. Mahnı Londonda yazılıb. Səhnə quruluşu üzərində məşhur yunan Fokas Evangilinos çalışıb. Lakin göründüyü kimi, mahnı ölkəmiz üçün uğurlu olmadı.

Mövzu ilə bağlı bəstəkar-müğənni, teleaparıcı Murad Arif "Yeni Müsavat"a danışdı: "Bildiyiniz kimi, lap əvvəldə İsrail təmsilçisinin qalib olacağını proqnoz vermişdim. Bundan əvvəl də verdiyim proqnozlar düz çıxmışdı".

Murad Arif ölkəmizin hansı səbəbdən uğur qazanmamasına da toxundu: "Əsas səbəb təşkilat komitəsinin əvvəlki illərdə olduğu kimi, həvəsli olmamasıdır. Yeni metodlar, sistemlər, adamlar axtarılmır. Yeni resursları, bəstəkarları, yazarları, rəqqasları cəlb etmək lazımdır. Halbuki "Avroviziya" Azərbaycan üçün yeni metod yarada bilərdi. Biz həmişəki kimi pul töküb əcnəbiləri aldıq. Ümumiyyətlə isə bu məsələ ilə aidiyyəti olan insanlar məşğul olsa, yaxşıdır... Bizim budəfəki mahnımız, səhnəmiz mənasız idi".

Onu da qeyd edək ki, Qafqaz regionundan Rusiya, Gürcüstan, Ermənistan da yarım finala çıxa bilməyib.

Azərbaycan bu yarışmada Belarusa - 12, İsrailə - 10, Çexiyaya - 8, Kiprə -7, İrlandiyaya - 6, Avstriyaya -5, Bolqarıstana - 4, Estoniyaya - 3, Belçikaya - 2, Litvaya isə 1 səs verib.

Digər müsabiqələr kimi, bu müsabiqə də qalmaqallarla yadda qalıb. Məsələn, "2017 - "Eurovision" mahnı müsabiqəsində Rusiyanı təmsil edən müğənni Yuliya Samoylovaya ev sahibi Ukraynanın ölkəyə giriş qadağası qoymasının ardınca Rusiya müsabiqədə iştirakdan imtina etmişdi və bir illik fasilədən sonra 2018-ci ildə Rusiya müsabiqəyə geri dönəcəyini açıqlamışdı. Beləliklə, Samoylova Ukraynada oxuyacağı "I Won't Break" mahnısını bu müsabiqədə oxudu, lakin finala keçə bilmədi.

Daha bir qalmaqal Ukrayna üçün oldu. Belə ki, 10 yanvar 2018-ci il tarixdə sosial şəbəkədə ukraynalı müğənni Alekseyevin Belarusun 2018 "Eurovision" milli seçim turuna təqdim etdiyi "Forever" mahnısının rusca versiyasını ("Navseqda") 2017-ci ilin may ayında Stavropol şəhərində ifa etdiyi videosu paylaşılıb. "Eurovision"nun qaydalarına görə isə müsabiqədə ifa olunan mahnılar müsabiqədən səkkiz ay öncə heç bir yerdə səsləndirilməməlidir. Milli seçim turunda iştirak edən bir neçə iştirakçı Alekseevin yarışmada iştirakının dayandırılmayacağı halda onların seçim turunda iştirakdan imtina edəcəklərini bildirmişdirlər.

İştirakçılardan Sofi Lapina məhz belə də etdi. Lakin mahnının musiqisinə kiçik dəyişiklik edildikdən sonra Belarus telekanalı Alekseyevin seçim turunda iştirakına razılıq verilib. Seçim turunda həmin mahnı ilə qələbə qazanan ifaçı mart ayında mahnının yeni versiyasını təqdim edib.

Ən böyük qalmaqal isə Böyük Britaniyanın təmsilçisi ilə bağlı olub. Belə ki, final-şouda səhnədə olan müğənni Surie gözlənilməz hadisə ilə rastlaşıb. Müğənni çıxış edən zaman naməlum şəxs səhnəyə qalxaraq ifaçının mikrofonunu əlindən alıb. Yalnız təhlükəsizlik əməkdaşlarının müdaxiləsindən sonra ifaçı çıxışını başa vurub. Hadisənin ardınca Avropa Yayım İttifaqı Böyük Britaniya təmsilçisinə bir daha səhnə almaq fürsəti tanısa da, ifaçı imtina edib.

Çexiya təmsilçisi isə müsabiqədə məşq zamanı zədə alıb. Mikolas Yosefin dərhal xəstəxanaya çatdırılıb. Növbəti gün ifaçının vəziyyətinin daha da ağırlaşdığı deyilirdi. Lakin Yosef heç nəyə baxmayaraq müsabiqəyə qatılıb.

Çində isə yayım senzurası ilə bağlı qadağa böyük qalmaqala səbəb olub. Buna səbəb Çində "Eurovision"nı yayım hüququ olan Mango TV birinci yarımfinalın yayımı zamanı Albaniya və İrlandiya təmsilçilərinin ifalarını yayımdan çıxarması olub. Belə ki, Çində döymə nümayiş etdirən şəxslərin televiziyada yayımlanmasına qoyulan qadağa səbəbi ilə Albaniyanın müsabiqədəki çıxışı yayımlanmayıb. Eyni zamanda İrlandiya təmsilçisinin çıxışı zamanı ifaçını səhnədə rəqs ilə müşayiət edən homoseksual cütlüyün yer alması səbəbindən telekanal İrlandiyanın da çıxışını yayımlamayıb. Bunun ardınca Avropa Yayım İttifaqı kanalın hərəkətini pisləyərək, bunun müsabiqənin birlik və bərabərlik dəyərlərinə zidd olduğu söyləyib və nəticədə "Eurovision"nun Çində yayımına rəsmi olaraq qadağa qoyub.

Türkiyə tərəfi isə əvvəlcədən açıqlama verərək bildirmişdi ki, bu yarışmada iştirak etməyəcək. Yada salaq ki, Türkiyə bu sonuncu dəfə 2012-ci ildə Bakıda keçirilən müsabiqədə iştirak edib və 7-ci yerə sahib olub.

❑ **Xalidə Gəray, "Yeni Müsavat"**

## Elan

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Hacıyev Ramil Əqil oğluna verilmiş Bakı şəhəri, Nərimanov rayonu, Yusif Vəzir Çəmənzəminli küçəsi 123 ünvanlı qeyri-yaşayış sahəsinin 0540681 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.**



# Sabirabadda nişanlısının yaşını öyrənən qız evdən qaçdı

**Sabirabadda 16 yaşlı qız evdən qaçıb və hələ də ondan bir xəbər yoxdur. Musavat.com "Xəzər TV"yə istinadən xəbər verir ki, hadisə Sabirabad rayonunun Qalağayın kəndində baş verib.**

Qızın anası Fərəh Ruhullayeva bildirir ki, 16 yaşlı Əfruzə Zeynalova əmisigilə getmək adı ilə evdən çıxıb və bir daha geri qayıtmayıb. Anasının sözlərinə görə, Əfruzə öz razılığı ilə nişanlanıb.

Əvvəlcə ona deyiblər ki, nişanlısının 25 yaşı var. Amma o, nişanlısının ad günündə tortun üzərindəki 29 rəqəmini gördükdə həqiqəti bilib və həmin şəxslə münasibətlərə son qoymaq qərarına gəlib. Anası onu fikrindən daşındırmaq istəsə də, buna nail ola bilməyib. Evdə aralarında soyuqluq da məhz bu məsələdən sonra yaranıb. Fərəh Ruhullayeva qızının ən qısa zamanda evə qayıtmasını istəyir.

Qeyd edək ki, 16 yaşlı Əfruzə Zeynalova Sabirabadın Qalağayın 1 saylı orta məktəbin 10-cu sinif şagirdidir. Ailə

YENİ MÜSAVAT
N 104 (6993) 14 may 2018



# Onlar bütün həyatlarını bir gündə unudurlar

## Altsheymer xəstələri - yaşlı, yaddaşı sıfırlanmış uşaqlar…

**Bir çox ailələrdə yaşlı insanların yaddaşsızlığı, hadisələri qarışdırması, keçmiş zamanda yaşaması az qala, lətifə kimi səsləndirilir. Amma bu, belə olmamalıdır. Çünki ailənin yaşlı üzvü yaddaşını itiribsə, bunu "filankəs xərifləyib" kimi təqdim etmək ən azı, cahillik əlamətidir. Çünki bu da xərçəng, ürək çatışmazlığı, damar tıxanması kimi bir xəstəlikdir. Hətta onlardan daha dəhşətli xəstəlikdir - müalicəsi yoxdur, insanın yaddaşını sıfırlayıb, həyatdan qoparır.**

### Xəstəlik 1906-cı ildə kəşf edilib, amma ondan öncə də vardı

Yaşlanma ilə bərabər meydana çıxan, neyropsixiatrik sindromlarla gedən, müalicə olunmayan degeneratif Altsheymer xəstəliyi qocalıq demensiyasının ən geniş yayılmış forması olaraq, ilk dəfə 1906-cı ildə alman psixiatrı Alios Altsheymer tərəfindən Auquste Deter adlı bir qadın xəstədə tapılıb. Altsheymer yaddaş itkisi, nitq və zehni fəaliyyətin pozulması, şəxsiyyət və davranış dəyişiklikləri, günlük həyat fəaliyyətinin zəifləməsi ilə müşayiət olunan getdikcə dərinləşən ciddi beyin xəstəliyidir. Son illərdə adına tez-tez rastlaşdığımız, aşkarlandığı vaxtdan 100 il keçilməsinə baxmayaraq çarəsi tapılmayan Altsheymer inkişaf edən tibbin yeni müalicə üsullarına rəğmən 21-ci əsrin ən ciddi sağlıq problemlərindən biri olaraq qalmaqdadır.

Bu gün yaşlılarda ürək xəstəlikləri, xərçəng və iflicdən sonra 4-cü sırada qarşımıza çıxan Altsheymer maliyyəti ən yüksək olan xəstəliklər sırasında ürək və xərçəng xəstəliklərindən sonra 3-cü yeri tutur. Uzun illər aparılan təcrübələr nəticəsində müəyyən edilib ki, yaşlanma, cinsiyyət və ailədə demensiyalı xəstənin olması (ailə anamnezi) Alzheimer xəstəliyinin əsas risk faktorları hesab edilməlidir. Xəstəlik irsi və irsi olmayan (sporadik tip) tiplərə ayrılır. İrsi tip bütün Alzheimer xəstələrinin cəmi 1-5%-ni təşkil edir və 50-yaşlardakı Altsheymer xəstələri əsasən bu qrupa aiddir. İrsi olmayan tip isə xəstələrin geriyə qalan 95%-ni təşkil edir ki, yaşlı xəstələr əsasən bu qrupda yer alır.

Qeyd etmək lazımdır ki, aparılan çalışmalar xəstəlikdə birdən çox irsi faktorun rol oynadığını göstərib. Odur ki, risk faktorları arasında irsiliyin olması, ailəsində demensiyalı xəstənin olduğu hər kəsin yaşlandıqda Altsheymer tutulacağı anlamına gəlmir. Lakin ailəsində və yaxın qohumlarında bu xəstəlik olanlarda risk 4 qat artır. Xəstəliyin qadınlarda kişilərə nisbətən daha çox müşahidə olunması isə qadınların daha uzun ömürlü olması ilə izah edilir. Xarakterik olaraq 65-yaşından sonra meydana çıxan Altsheymer xəstəliyinə araşdırmalara görə, 65 yaşın üzərindəki hər 15 nəfərdən birində, 80-85 və ondan yuxarı yaşlarda isə hər üç nəfərdən birində təsadüf etmək olar. Altsheymer bəzən təəssüf ki, 40-50 yaşlarında da, ortaya çıxır. Nə qədər təəccübləndirici olsa da, amansız xəstəliyə nadir hallarda uşaqlar da düçar olur. Böyük Britaniyadakı Altsheymer xəstəsi 4 yaşlı Kalum Burdon artıq bu xəstəliyə tutulmuş 20-ci uşaqdır.

Yaxın zamanlara qədər bir çox alimlər xəstəliyin səbəbinin orqanizmin qocalması olduğunu düşünsələrdə daha sonra sübut olundu ki, Altsheymer xəstəlikdir. Xəstəliyin səbəbi hələ tam bilinməsə də, iki başlıca hipotez irəli sürülür: beyində bəlli bölgələrdə hüceyrə itkisi; hüceyrələrarası bağlantıların qopması. Orqanizmdə Altsheymerə yol açan iki əsas patoloji səbəb var:

1) Sinir hüceyrələrinin yumaqlara çevrilməsi (neyrofiblyar yumaqlar),

2) Hüceyrələr arasında amiloid deyilən protein tərkibli maddənin toplanması.

Beynimizin hər kub.sm.-də 1 trilyon bağlantısı olan 100 milyard neyron mövcuddur. Neyronlar ümumi çəkisi 1300 qramdan yüngül olan sərhədsiz, kompleks bir "informasiya fabrikini" təşkil edir. Bu mürəkkəb "fabrik" insanın yaddaş sisteminin təməlidir. Məhz, bu sistemi təşkil edən neyron hüceyrələrini məhv edən patoloji proses nəticəsində Altsheymer xəstələri yaddaşlarını itirir. Altsheymer xəstəliyinin patogenezini dəqiq başa düşmək üçün ilk növbədə xəstəliyin neyron hüceyrələrini necə məhv etdiyini anlamaq lazımdır.

### Xəstəlik mərhələlərdə və ya onun müalicəsi niyə tapılmır?

İnkişafda olan, eyni zamanda indiki vaxtda qəti bir müalicəsi hələ tapılmayan Altsheymer xəstədən xəstəyə fərqlilik göstərən əlamətlərlə ortaya çıxmaqdadır. Altsheymer addım-addım irəlilədiyi üçün mərhələlərdə ortaya çıxan əlamətləri yaxşı bir şəkildə müşahidə etmək və xəstəyə necə kömək olacağımız mövzusunda mütəxəssislərdən kömək istəməliyik.

Xəstəlik üç mərhələdə inkişaf etməkdədir: başlanğıc, normal gediş və dərin mərhələ.

1-ci mərhələ: yaddaşda qısa davamlı məlumatları saxlamaqda çətinlik çəkmə, sözləri tapmaqda çətinlik hiss etmə, əşyaları itirmə, digər yerlərdə istiqamət tapma çətinliyi, aktivlik mürəkkəbliyi, hobbiləri davam etdirməyimiz, yeni işləri bacara bilməmək, hüznlü bir ruh halı, xəstəliyin inkar edilməsi, heç bir şeyi aldırmamaq, əsəbilik.

2-ci mərhələ: yeni yaşanan hadisələrin tamamilə unudulması, keçmişdə yaşanılan hadisələrin və öyrənilmiş məlumatların yavaş-yavaş unudulması, anlamada çətinlik çəkmə, ifadə məhrumluğu, daha əvvəl çox yaxşı bilinən məkanlarda itmə, ehtiyacları tək başına ödəyə bilməmək (tualet, geyinmə, yemək və s.), bacarıqları itirməyə başlama, insanları tanımamaq, olmayan şeylərin var olduğunu israrla izah etmək.

3-cü mərhələ: danışıq yalnız bir neçə sözlə məhdud olur, öz evini unudar, otaqları qarışdırar, ən yaxınlarını tanıya bilməz, təkrarlayıcı hərəkətlər edər, zorakılıq tətbiq edər, həyat fəaliyyətlərinə tamamilə asılı hala gəlir, yatağa asılı qalar.

### Erkən diaqnoz nəyi həll edir?

Altsheymer xəstəliyinin indiyə qədər tibb elminə məlum olan bir müalicəsi olmamasına baxmayaraq, xəstələrə erkən diaqnoz qoyulduqda xəstəliyin inkişafını xeyli ləngitmək mümkündür. Xəstəlik adətən amerikalı bir alimin dediyi kimi, "pişik balasının addımları kimi sakit və yumşaqca irəliləyir" üçün ilk vaxtlarda diqqət cəlb etmir. Lakin tədricən xəstənin "yaddaşındakı boşluğun" böyüməsi ilə paralel olaraq xəstəlik orqanizmin bütün funksiyalarını pozmağa başlayır və bir çox hallarda xəstə ömrünün son illərini yataqda keçirir. Bu səbəbdən xəstəliyin başlanğıc dövrlərində aşkar edilərək müalicəyə başlanması həyati əhəmiyyət daşıyır.

Xəstəliyinin başlandığını işarət edən simptomlar bunlardır: güclənən daimi yaddaş itkisi, gündəlik işləri görməkdə çətinlik, nitq zamanı doğru sözlərin seçilməsində çətinlik, zaman və məkan anlayışlarının itirilməsi, mühakimə qabiliyyətində pozğunluq, qərar vermə prosesində çətinlik, əşyaları itirmə, xəstələrin xasiyyət və davranışlarında kəskin dəyişikliklə, tənbəlləşmə, uzun müddətli hərəkətsizlik.

Xəstəlik inkişaf etdikcə simptomlar özünü daha kəskin şəkildə biruzə verməyə başlayır. Getdikcə xəstəliyin ilk mərhələsindən etibarən başlamış unutqanlıq narahat edici xarakter alır. Xəstə tez-tez əşyalarını itirməyə, özünü ətraf-mühitdən təcrid etməyə başlayır, daim depresiv əhval-ruhiyyədə olur, səbəbsiz narahatlıqlar keçirir, onun davranışlarında çaşqınlıq hiss olunur. Xəstəlik irəlilədikcə xəstəni tamamilə ətraf aləmdən təcrid etmiş olur. Xəstə halusinasiyalar görməyə, özünə yaxın olan insanları belə tanımamağa başlayır. Xəstə bir düz xətt üzrə yeriyə bilmir, mühakimə və qismən hərəkət qabiliyyətini itirir.

Xəstəliyin fərdi hallarda üzə çıxan simptomları da var: ictimai yerlərdə uyğun olmayan davranışlar etmək, heç bir səbəb olmadan əsəbiləşmək, qışqırmaq, qaranlıqdan, tək qalmaqdan qorxmaq, yuxusuzluq, gigiyena qaydalarına əməl etməmək və s. Bəzi az rast gəlinən hallarda Altsheymer xəstələri ictimai yerlərdə paltarlarını çıxarmaq, küçədə ətrafdakı insanlara məhəl qoymadan tualet ehtiyaclarını ödəmək, qarşı cinsdən olanlara sataşmaq və mağaza və ya başqa bir yerdən səbəbsiz yerə oğurluq etməyə çalışmaq kimi maraqlı hərəkətlər də edə bilirlər.

### Xəstəlikdən necə sığortalanaq?

Dünyanın bir çox ölkələrində həkim, xəstə, xəstə yaxınları və könüllülərdən qurulmuş heyətlə Altsheymer xəstələrinə və xəstə yaxınlarına müxtəlif dəstək xidmətləri verən bir Altsheymer Assosiasiyası fəaliyyət göstərir. Xəstəliyin cəmiyyətdə daha yaxşı tanınması, xəstələrə qulluq və bu mövzudakı elmi araşdırmaların aparılması üçün səy göstərən qurumlar xüsusilə xəstə yaxınları ilə davamlı dialoq içərisində olub bilik və təcrübə mübadiləsini təmin edir.

Hesablamalara görə, hazırda bütün dünyada 20-25 milyona yaxın Altsheymer xəstəsi var və 2050-ci ilə qədər bu sayın 4 dəfə artacağı təxmin edilir. Araşdırmalara görə, ölkəmizdə belə xəstələrin bəlli bir statistikası yoxdur. Lakin onların sayının artdığı aşkardır. Hər il 21 sentyabr "Dünya Altsheymer Günü" kimi qeyd edilir.

Beyni kitab oxumaq və ya yazmaqla məşğul saxlamaq ahıl yaşlarda insanın düşüncəsini qorumuş olur. Bu barədə yenicə keçirilmiş tədqiqatın nəticələrində deyilir. Amerika alimləri bildirirlər ki, ömür boyu fəal zehni əmək beynin öyrənmə funksiyasını fəal saxlamaqla ağıldankəmliyin inkişafına mane olur.

"Neurology" jurnalında dərc olunmuş məqalədə deyilir ki, həyat tərzi ağıldankəmliyi xeyli ləngidə bilir. Altsheymer xəstələri üçün xeyriyyələrdən biri tövsiyə edir ki, balanslı pəhriz, idman və normal bədən çəkisi ağıldankəmliyə qarşı əsas mübarizə vasitələridir. ABŞ-da aparılan tədqiqat zamanı 55 yaşdan yuxarı 294 nəfər 6 il müddətində ölümlərinədək hər il, yaddaş və düşüncəni ölçməyə imkan verən testlərdən keçirilib. Onlar həmçinin uşaqlıqda, həddi-büluğ yaşında, orta yaşlarda və sonralar kitab oxuduqları, məktub yazdıqları və zehni əmək tələb edən digər fəaliyyətlə məşğul olub-olmadıqları barədə sorğu anketləri doldurublar.

Ölümlərindən sonra bu təcrübədən keçmiş şəxslərin beyinləri müayinə edilib. Alimlər beyində ağıldankəmliyə səbəb olan zədə və ləkələrin mövcudluğunu araşdırıblar. Nəticədə bəlli olub ki, beynini məşğul saxlayanlarda ağıldankəmliyin sürəti 15 faiz aşağıdır. Çikaqodakı Rush Universiteti Tibbi Mərkəzinin professoru Robert Vilson deyib ki, beyni zehni əməklə məşğul etmək ahıl yaşlarda düşüncə sağlamlığını qorumağa xidmət edir. O, BBC-yə müsahibəsində deyib ki, "qoca vaxtımızda beynimizin vəziyyəti onu ömür boyu necə işlətməyimizdən asılıdır".

Altsheymer Cəmiyyətindən doktor James Pickett isə deyir ki, bu sahədə hələ çox tədqiqata ehtiyac var, lakin kitab oxumağın və krosvord həll etməyin ziyanlı olmadığı bəllidir. Professor Pickett bu qənaətdədir ki, ümumən sağlam olmağın yolu pəhriz, idman və sağlam bədən çəkisidir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 104 (6993) 14 may 2018

# Pulu ərinə verməmək üçün onları yedi

**Kolumbiya sakini bir qadın vətəndaş nikahında olduğu kişi ilə pullarını bölməmək üçün onları yeyib. Bu barədə lenta.ru saytı xəbər verir.**



28 yaşlı qızın yediyi pulların sayı isə çox olub. 90 ədəd 100 dollarlıq kupyura. Prokurorluğun verdiyi məlumata görə, qız birgə yaşadıqları müddət ərzində yığdıqları 9 min dolları yeyib. Son nəticədə isə ona həkim yardımı lazım gəlib ki, onlar da bu qeyri-adi naharı onun bədənindən çıxarıblar.

Bununla yanaşı, qız polisə etiraf edib ki, 5.7 min dollar pul salamat qalıb. Amma ümumi məbləğin 1/3 hissəsi sıradan çıxıb. Amma prokurorluqda deyiblər ki, qıza qarşı hər hansı cinayət işi aça bilməzlər. Çünki onun məhv etdiyi pullar sevgilisi ilə birgə yaşadıqları müddətdə qanuni yolla əldə etdikləri vəsait olub.

Ötən ilin may ayında Ukraynanın Xmelniski vilayətində vətəndaşdan aldığı rüşvət ifşa olunduğu zaman bir məmur həmin pulları yeməyə çalışmışdı. Məmur xarici pasportu daha tez verməsi üçün vətəndaşdan 1.6 min qriven tələb etmişdi.



# Ana və oğul eyni gündə cinsiyyətlərini dəyişdirdi

**15 yaşlı amerikalı Kori Meyson oğlan kimi dünyaya gəlsə də, 10 yaşına çatanda oğlan kimi yaşamağın ona maraqlı gəlmədiyi qənaətinə köklənib. Onun bu problemini həll etmək üçün sözügedən sahə üzrə ixtisaslaşmış həkimlərə, klinikalara aparıblar. Bunun həm psixoloji, həm fizioloji proses olduğu qənaətinə varan həkimlər valideynlərin də razılığı ilə uşağın cinsiyyətini dəyişdiriblər.**

Amma hadisədən 4 il sonra uşağın anası da qərar verib ki, həyatı boyu başqa bədəndə yaşayıb. Bununla da onlar dünyadakı birinci transgender ailə olublar. 2015-ci ildə ana Kori ərinə etiraf edib ki, onun dəhşətli bir sirri var. Bu sirr də ondan ibarətdir ki, o, kişi olmaq istəyir. Əri onu atıb getməyib, amma yardım edəcəyinə söz verib. Bir müddət sonra uşaqları da bu durumdan xəbərdar olublar.

Hazırda ana Kori özünə kişi adı Eriki götürüb və ilk növbədə sinə kiçiltməsi əməliyyatına girmək istəyir: "Mənim möhtəşəm ailəm var. Onlar məni anlayırlar. Sanki heç nə baş verməyib, həyatımız öz yolunda davam edir. Və məhz indi, ilk dəfədir ki, özümü həyatda doğru hiss edirəm".

# Sosial şəbəkədə diqqət çəkməyin əsas yolu... qəmli mahnı paylaşmaq



**Psixoloqlar müəyyənləşdiriblər ki, insan depressiv vəziyyətdə olan zaman tez-tez şəkillərini paylaşır. Ümumiyyətlə, sosial şəbəkələr 2-3 formada istifadə olunur. Bəziləri insanlar bunu iş, bəziləri isə şəxsi məqsədləri üçün istifadə edir.**

Şəxsi mənafeyi üçün istifadə edənlər tez-tez statuslar yazır, şəkillər paylaşır. Bu tip insanların paylaşdığı şəkillərin bir-biri ilə nə dərəcədə uzlaşdığına fikir vermək lazımdır. Normalda bir insan gün ərzində 4 fərqli əhvali-ruhiyyədə şəkil paylaşırsa, bu, onun həmin gün keçirdiyi dəyişkən psixoloji durumundan xəbər verir. İkinci tərəfdən, paylaşılan bu şəkillər diqqət çəkmək məqsədi daşıyır.

Sosial şəbəkələrdə diqqət çəkməyin vasitələrindən biri də qəmgin şəkillər paylaşmaqdır. Belə şəkil paylaşan zaman insanlar nə baş verdiyini öyrənmək üçün həmin insana yazıb hal-əhvalını soruşur. Yaddan çıxan insan bir anda dostların diqqət mərkəzinə çevrilir. Bunu özünütəsdiq forması kimi də qiymətləndirmək olar. Bu cür hallar həmin insanlara psixoloji güc verir. Ümiləşdirsək, sosial şəbəkədə tez-tez şəkil paylaşmaq iki halda baş verir:

**1** - Depressiv vəziyyətdə olan zaman

**2** - Diqqət çəkməklə daxili rahatlıq tapmaq istəyən zaman.

# Qoroskop




**QOÇ** - Maraqlı adamlarla görüşləriniz mümkündür. Belə məqamlarda kiminsə əleyhinə danışmaqdansa, öz söhbət və davranışlarınızla rəğbət qazanmağa çalışın. Riskdən uzaq olun.

**BUĞA** - Bu gün iştirakçısı olduğunuz əksər proseslər sizə xeyir verəcək. Mövcud reallığa obyektiv qiymət verin. Kənar təsirlərə uymayın. Qətiyyən görücü və ya falçı yanına da getməyin.

**ƏKİZLƏR** - İş və fəaliyyətlə bağlı yeniliklər yolunuzu gözləyir. Bunun üçün bəzi mühüm şəxslərlə görüşməyiniz vacibdir. Çətinlikdən qorxmayın. Ən azı ona görə ki, artıq öz dövranınız yetişməkdədir.

**XƏRÇƏNG** - Riskli hadisələrlə üzləşmə ehtimalınız var. Nəticənin sizə xeyir verməsini istəyirsinizsə, təcrübəli adamlarla məsləhətləşin. Əmin olun ki, onlar sizə lazımi dəstəyi verəcək.

**ŞİR** - Əsas diqqətinizi fəaliyyətə yönəldin. Yalnız bu halda, qarşıya qoyduğunuz məqsədlərə nail ola bilərsiniz. Həmkarlarınızla, eləcə də doğmalarınızla münasibətdə acıdil olmayın.

**QIZ** - Maddi durumunuzu yaxşılaşdırmaq istiqamətində şansınız var. Bunun üçün maksimum bəhrələnməyə çalışın. Əvvəlcədən nəzərdə tutmadığınız məsələlərə baş qoşmayın. Sevgidə uğurlarınız gözlənilir.

**TƏRƏZİ** - Sevindirici hadisələr, təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, gözlənilməz səfərə də çıxasınız. Amma pul və sənədləşdirmə işləri ilə bağlı bütün planlarınızı təxirə salın.

**ƏQRƏB** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində müəyyən uğurlara yiyələnəcəyinizdən xəbər verir. Digər işlərdə isə gərginlik hökm sürəcək. Səhhətinizə xüsusi diqqət ayırın.

**OXATAN** - Əsas planlarınızı iş vaxtına təyin edin. Çünki axşam saat 18-dən sonra sinirlərinizin gərilməsi işlərinizə mane olacaq. Nahar ərəfəsində gözləmədiyiniz istiqamətdən sevinə bilərsiniz.

**OĞLAQ** - Təxminən saat 14-ə qədər passiv ərəfə yaşayacaqsınız. Həmkar və rəhbərinizlə mübahisələrə cəlb oluna bilərsiniz. Sonrakı müddətdə isə hər şey normal tərzdə cərəyan edəcək.

**SUTÖKƏN** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq istəyirsinizsə, çoxdan bəri nəzərdə tutduğunuz şəxslərlə görüşləri reallaşdırın. Digər işləri təxirə salmaq da olar. Riskdən qorxmayın.

**BALIQLAR** - Artıq son günlər qlobal problemlərinizin həlli yolları aydınlaşmağa başlayıb. Bunu sürətləndirmək üçün ətrafınızda etibarlı insanlar olmalıdır. Axşama yaxın səhhətinizi qoruyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu da insan dərisinə bənzəyən əvəzləyici



**Rusiyanın Ulyanov Dövlət Pedaqoji universitetinin elmi-tədqiqat mərkəzinin əməkdaşları analoji insan dərisinin strukturunu yaradıblar. Bu, adət edilmiş "süni dəri" deyil. Analoq dəri kosmetologiyada və transplantasiyada tətbiq edilə bilər.**

Universitetin elmi-tədqiqat mərkəzinin rəhbəri Yelena Antonov bu barədə açıqlama verib: "Biz dəri örtüyünün zədələrinin müalicəsi üçün tətbiq edilə bilən molekulyar-hüceyrə məhsullarının üç növü hazırladıq. Bu, məsələn, yanıqlardan sonra, mexaniki travmalar, trofik yaralar, həmçinin kosmetologiyada istifadə olunmaq üçündür".

Ulyanov mütəxəssislərinin ixtirası artıq Ulyanovskun müxtəlif klinikalarında bir sıra laboratoriya sınaqları müvəffəqiyyətlə keçdi. Tədqiqatçılar qeyd etdiyi kimi, süni dərinin analoqu sadədir və istehsalda kifayət qədər ucuzdur, buna görə o tibbi müəssisələr üçün əlçatan olacaq. Hazırda ixtiranın müəllifləri müxtəlif tibbi təşkilatlar və bərpa mərkəzləri ilə əməkdaşlığa patenti almağı planlaşdırırlar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100